18 yanvar 2023 №4 (1973)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Qarabağ və Şərqi Zəngəzurun havası və günəşi dünyanın diqqətini çəkəcək

### Prezident İlham Əliyev Əbu-Dabi Dayanıqlılıq Həftəsində azad edilmiş ərazilərin "yaşıl enerji" imkanlarını bir daha nəzərə çatdırıb

Azərbaycanın 2020-ci ildə Vətən müharibəsi zamanı azad edilmiş ərazilərində 10 qiqavatlıq külək və günəş enerjisi imkanları mövcuddur. Bundan əlavə, ölkəmizin quruda 27 qiqavatlıq külək və günəş enerjisi potensialı var. Həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Yəni, 200 qiqavata yaxın potensial var. Əlbəttə ki, bizə kifayət qədər ixrac marşrutları lazımdır. Biz bütün bu layihələri mərhələli şəkildə icra edirik.



Prezident İlham Əliyev Azərbaycanın "yaşıl enerji" potensialı ilə bağlı rəqəmləri yanvarın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında, Əbu-Dabi Dayanıqlılıq Həftəsinin açılış mərasimində çıxışı zamanı diqqətə çatdırıb.

"Yaşıl enerji" mənbələrini hərəkətə gətirmək və bununla beynəlxalq enerji müstəvisinə yeni çıxışlar əldə etmək Azərbaycanın hədəflərindən biridir. Dövlət başçısı bildirib ki, ölkəmiz bərpaolunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmir. Azərbaycan enerji təhlükəsizliyini hələ bir neçə il əvvəl təmin edib və bu gün Azərbaycan nəinki öz tələbatlarını təmin edir, həmçinin xaricə enerjisi ixrac edir. Bərpaolunan enerji ilə bağlı proqramla biz bu sahədə ixracı şaxələndirəcəyik. Eyni zamanda iqtisadiyyatın yeni ekoloji təmiz sektoru yaranacaq.

Bununla bağlı Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin "yaşıl enerji" imkanlarına dünyanın diqqətini çəkmək xüsusi əhəmiyyət kəsb edir. 100-dən çox ölkənin qatıldığı Əbu-Dabi Dayanıqlılıq Həftəsi bu baxımdan mühüm beynəlxalq platformadır. Bu, həmçinin potensial investorların nəzərini Azərbaycanın azad edilmiş ərazilərinə yönəldilməsi üçün əlavə fürsətdir. Təbii ki, bu xüsusda Ərəb dünyası və ayrılıqda Birləşmiş Ərəb Əmirlikləri ilə əməkdaşlıq üçün imkanlar var. Prezident İlham Əliyevin səfəri çərçivəsində Əbu-Dabi şəhərində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında "yaşıl enerji" (günəş və külək) üzrə imzalanan saziş də bunun göstəricisidir.

Qeyd edək ki, son illərdə Azərbaycanın beynəlxalq aləmdə bir sıra vektorlarda, o cümlədən ərəb dövlətləri ilə münasibətləri də yeni inkişaf mərhələsinə qədəm qoyub. Burada, təbii ki, tarixi-mədəni bağlılıq da var. 2005-ci ildə Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında memorandum imzalanıb və ölkəmiz qurumda müşahidəçi statusuna malikdir. 2014-cü ildə Ər-Riyadda keçirilmiş birinci "Ərəb Dövlətləri Liqası – Orta Asiya – Azərbaycan Əməkdaşlıq və İqtisadi Forumu"nun yekunu olaraq qəbul edilmiş bəyannamədə Ermənistan-Azərbaycan münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında həllinin vacibliyi vurğulanmışdı. Bəyannamədə Prezident İlham Əliyevin təşəbbüskarı olduğu Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti də qeyd edilmişdi. 2022-ci ilin iyununda keçirilən IX Qlobal Bakı Forumuna iştirak edən Ərəb Dövlətləri Liqasının baş katibi Əhməd Əbul Qeyt də qatılmışdı. Ötən ilin noyabrında isə Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi Əlcəzairdə keçirilən Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında fəxri qonaq statusunda çıxış etdi.

davamı səh. 2-də

## Davosda növbəti Dünya İqtisadi Forumu




16-20 yanvar tarixlərində İsveçrənin kurort şəhəri Davosda növbəti Dünya İqtisadi Forumu keçirilir. Dünya gündəminin ən aktual mövzularının diqqətə alındığı Davos Forumu pandemiyanın doğurduğu ikiillik aradan sonra yenidən dünyanın bir çox ölkələrinin liderlərini ənənəvi formatda (üzbəüz) bir araya gətirib. Foruma 50-dək dövlət və hökumət başçısı, eləcə də BMT-nin, NATO-nun baş katibləri, Avropa İttifaqının, digər beynəlxalq təşkilatların rəhbər şəxsləri qatılıb.

Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün Davosa gedib. Dünya İqtisadi Forumunda dövlətimizin başçısının ilk görüşü Niderlandın "Damen Shipyards Group" şirkətinin icraçı direktoru və səhmdarı Arnout Damen ilə olub.

Azərbaycan Prezidenti daha sonra "CISCO" şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix ilə görüşüb.

Dünya İqtisadi Forumu bu il "Parçalanmış dünyada əməkdaşlıq" mövzusu altında təşkil olunub. Rusiya builki Davos Forumunda təmsil olunmur. Çini isə xarici işlər nazirinin müavini təmsil edir.

## Fəxri adlara görə aylıq təqaüdün məbləği artırılıb

Prezident İlham Əliyev yanvarın 13-də fəxri adlara görə aylıq təqaüdün məbləğinin artırılması haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, fəxri adlara görə aylıq təqaüdün məbləği 2023-cü il yanvarın 1-dən xalq yazıçısı, xalq şairi, xalq artisti və xalq rəssamı üçün 200 manat, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi, əməkdar müəllim, əməkdar həkim, əməkdar memar, əməkdar bədən tərbiyəsi və idman xadimi, əməkdar dövlət qulluqçusu, əməkdar jurnalist, əməkdar mühəndis, əməkdar hüquqşünas, əməkdar kənd təsərrüfatı işçisi, əməkdar pilot, əməkdar tibb işçisi üçün 180 manat müəyyən edilib. Qeyd edək ki, indiyədək bu təqaüdlər müvafiq olaraq 180 və 150 manat idi.

## "Heydər Əliyev İli"ndə VI Bakı Beynəlxalq Memarlıq Müsabiqəsi keçiriləcək

Azərbaycan Memarlar İttifaqı "Heydər Əliyev İli" çərçivəsində bir sıra layihə və tədbirlər həyata keçirməyi planlaşdırır. İl ərzində Beynəlxalq Memarlar İttifaqının dəstəyi, Azərbaycan Memarlar İttifaqı və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə VI Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin keçirilməsi nəzərdə tutulur.

Bu barədə Azərbaycan Memarlar İttifaqının yeni seçilmiş İdarə Heyətinin birinci təşkilati plenumunda məlumat verilib.

səh. 3

## Tofiq Kazımovun 100 illiyi TÜRKSOY-da qeyd edildi



Azərbaycanın tanınmış teatr rejissoru Tofiq Kazımovun 100 illiyi yanvarın 16-da Ankarada, Beynəlxalq Türk Mədəniyyət Təşkilatı – TÜRKSOY-da qeyd edildi.

Azərbaycanın Türkiyədəki Səfirliyi, Azərbaycan Mədəniyyət Nazirliyi, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi ilə birgə təşkil olunmuş tədbirə Azərbaycanın və Türkiyənin teatr xadimləri, sənətşünaslar qatılmışdı.

Tədbir iştirakçıları öncə TÜRKSOY-un ofisində Tofiq Kazımovun yaradıcılığını əks etdirən fotosərgi ilə tanış oldular.

TÜRKSOY-un baş katibi Sultan Raev, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Əməkdar incəsənət xadimi, sənətşünaslıq elmləri doktoru, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin professoru İsrafil İsrafilov, Adana Çukurova Universitetinin müəllimi, Azərbaycanın Xalq artisti Cahangir Novruzov, İzmir Dövlət Teatrının rejissoru Murad Çidamlı və başqaları Tofiq Kazımovun Azərbaycan teatrına və ümumilikdə Türk dünyasında teatr sənətinə töhfələrindən bəhs etdilər.

davamı səh. 3-də

## Elmi tədqiqat institutlarında struktur islahatları

AMEA-da albanşünaslıq üzrə tədqiqatların vahid mərkəzdən və sistemli şəkildə tədqiq olunmasını təmin etmək məqsədilə Memarlıq və İncəsənət İnstitutunun Alban memarlığı və incəsənəti şöbəsi Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Albanşünaslıq Elmi Mərkəzinin tərkibinə keçirilib.

səh. 3

## Yaşamaq bir sənətdirsə...

Bütün hallarda, necə və nəyə sərf olunmasından asılı olmayaraq, zaman ötür, ömür keçir. Səhnə, sənət adamları isə buna rəğmən daim sənətdə olmaq, tamaşaçı alqışı ilə ovunmaq kimi bir səadət üçün çalışıb çarpışırlar. Hər bir aktyorun, sənət insanının mütləq öz tamaşaçısı, sevəni olur.

Bu mənada xeyli sənətsevər Xalq artisti Əli Nurun 75 illik yubileyi münasibətilə yanvarın 14-də Akademik Milli Dram Teatrının salonuna toplaşmışdı. Bununla ona – artıq yaşlı aktyor nəslinin sırasında yer alan Əli Nura da rəğbətlərini bir daha isbat etmək istəyirdilər.



səh. 5

## Üzeyir bəy "Arşın mal alan"da onun obrazını yaratmışdı...

Mədəniyyət paytaxtımız Şuşanın tanınmış simaları arasında ötən əsrin birinci yarısında şöhrəti ölkəmizin hüdudlarını aşan xanəndə Məcid Behbudovun da adı var. Bu il anadan olmasının 150 illiyi tamam olan sənətkar həm də Azərbaycanın musiqi salnaməsinə Rəşid Behbudov kimi görkəmli müğənni bəxş edib.

Məcid Behbudov 1906-1907-ci illərdə Tiflisdə xanəndəlik edib. Tiflislə yanaşı, İrəvan və Naxçıvanda da geniş şöhrət qazanıb. O ən yaxın dostu tarzən Məşədi Zeynal Haqverdiyevlə birlikdə bir çox şəhər və kəndlərdə toy məclisləri aparıb. Müasirlərinin dediklərinə görə, Məcid bir neçə dildə mahnılar oxuya bilirmiş. Ona görə də tez-tez gürcü, ləzgi və digər xalqların toy şənliklərinə dəvət olunub. Ustad xanəndə opera səhnəsində də çıxış edib.

səh. 6

## "Şuşa" albomu məşhur musiqi platformalarında




Polşanın "Orphee classics" səsyazma studiyasında buraxılmış "Şuşa" musiqi albomu artıq dünya üzrə ən məşhur musiqi yayım platformaları olan "Spotify", "Amazon" və "Apple Music"a daxil edilib.

səh. 2

## "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq

Xalq yazıçısı, akademik Kamal Abdulla və AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevin müəllifləri olduğu "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq" kitabı işıq üzü görüb.

Milli Kitabxanada kitabın təqdimatı keçirildi. Tədbirdə Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" layihəsi çərçivəsində nəşr etdiyi "Lütfi Zadə. Biblioqrafiya" kitabı da təqdim olundu.

səh. 7

Gənc Tamaşaçılar Teatrında "Mənim ağ göyərçinim" və "İnanıram"



səh. 3

Mədəniyyət müəssisələrində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə bağlı anım tədbirləri

səh. 4



Aleksandr Şarovskinin 75 illiyi münasibətilə premyera olacaq

səh. 3

№4 (1973)
18 yanvar 2023
www.medeniyyet.az

# Prezident İlham Əliyev Vaxtanq Kikabidzenin vəfatı ilə əlaqədar başsağlığı verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Gürcüstan xalqının böyük oğlu, görkəmli müğənni, aktyor Vaxtanq Kikabidzenin vəfatı ilə əlaqədar onun doğmalarına və yaxınlarına başsağlığı verib.

Vaxtanq Kikabidzenin vəfatı xəbərindən son dərəcə kədərləndiyini bildirən dövlətimizin başçısı onun adının sovet və Gürcüstan mədəniyyətinin şanlı salnaməsinə əbədi həkk olunduğunu vurğulayıb.

"Çoxşaxəli istedadı, yüksək peşəkarlığı, sənətə gətirdiyi yeni və bənzərsiz ab-hava sayəsində Vaxtanq Kikabidze bütöv bir dövrün rəmzinə çevrilmişdir. Onun kinoda canlandırdığı unudulmaz obrazları, orijinal ifaçılıq məharəti ilə oxuduğu mahnıları neçə-neçə nəslin qəlbində xüsusi yer tutur", – deyə başsağlığı məktubunda bildirilir.

Azərbaycanın böyük dostu olan Vaxtanq Kikabidzenin yaradıcılığının xalqımız tərəfindən hər zaman sevildiyini, şəxsiyyətinə böyük hörmət və rəğbət bəslənildiyini bildirən dövlət başçısı Azərbaycanla Gürcüstan arasında mədəni əlaqələrə, dostluq və mehriban qonşuluq münasibətlərinə töhfələr vermiş görkəmli sənətkarın əziz xatirəsinin qəlblərdə yaşayacağını qeyd edib.

# "Babək" baleti növbəti dəfə səhnədə

Yanvarın 21-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında "Babək" baleti növbəti dəfə nümayiş olunacaq.




Xalq artisti, bəstəkar Aqşin Əlizadənin "Babək" baleti 1983-cü ildə Xalq artistləri Rəfiqə Axundova və Maqsud Məmmədovun quruluşunda ilk dəfə tamaşaya qoyulub.

IX əsrdə xalq qəhrəmanı Babəkin ərəb istilaçılarına qarşı 20 ildən artıq bir müddətdə davam edən mübarizəsi Azərbaycan xalqının tarixində önəmli yer tutur və xalqımızın erməni işğalçılarına qarşı Vətən müharibəsində Qələbəsindən sonra "Babək" baletinin yenidən səhnəyə qayıdışı çox aktualdır.

Tamaşaya yeni xoreoqrafik quruluşu Xalq artisti Kamilla Hüseynova verib. İlk quruluşun librettosu əsasında səhnəyə qoyulan baletin librettosuna cüzi əlavələr edilib. Tamaşanın dirijoru və musiqi rəhbəri Orxan Həşimov, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi Tehran Babayevdir.

# "Şuşa" albomu məşhur musiqi platformalarında

Polşanın "Orphee classics" səsyazma studiyasında buraxılmış "Şuşa" musiqi albomu artıq dünya üzrə ən məşhur musiqi yayım platformaları olan "Spotify", "Amazon" və "Apple Music"ə daxil edilib.



Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbəyə, Şuşa şəhərinin 270 illiyinə və Azərbaycanla Polşa arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr olunmuş albom 2022-ci ilin oktyabrında işıq üzü görüb və musiqisevərlər arasında böyük maraqla qarşılanıb.

Layihənin ideya müəllifi və rəhbəri Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanovadır. Musiqi albomu Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin, Azərbaycan Xarici İşlər Nazirliyi yanında Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) və Polşadakı səfirliyimizin dəstəyi ilə ərsəyə gəlib.

Alboma Azərbaycan və Polşanın görkəmli bəstəkarları – Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Aqşin Əlizadə, Myaçeslav Karloviç və Vitold Lutoslavskinin əsərləri daxil edilib.

Bütün musiqi proqramı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist Əyyub Quliyevin idarə etdiyi Polşanın "Sinfonia Varsovia" orkestrinin ifasında Varşava Milli Radiosunda lentə alınıb.

Diskin annotasiyasının müəllifi Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, musiqişünas Raya Abbasovadır.

# Şuşa teatrının 20 Yanvarla bağlı ədəbi-bədii kompozisiyası

Şuşa Dövlət Musiqili Dram Teatrı 20 Yanvar faciəsinin 33-cü ildönümü münasibətilə Dövlət Sərhəd Xidməti Akademiyasının şəxsi heyəti qarşısında "Yanvarın iyirminci günü" adlı ədəbi-bədii kompozisiya ilə çıxış edib.

Kompozisiya Məhəmmədhüseyn Şəhriyar, Bəxtiyar Vahabzadə və Zəlimxan Yaqubun şeirləri, Üzeyir Hacıbəyli, Qara Qarayev və Volfqanq Amadey Motsartın musiqiləri əsasında hazırlanıb.

Səhnə nümunəsində 20 Yanvar faciəsinin Azərbaycan tarixinin həm hüzn, həm də qürur səhifələrindən olduğu vurğulanır.

# Qarabağ və Şərqi Zəngəzurun havası və günəşi dünyanın diqqətini çəkəcək

## Prezident İlham Əliyev Əbu-Dabi Dayanıqlılıq Həftəsində azad edilmiş ərazilərin "yaşıl enerji" imkanlarını bir daha nəzərə çatdırıb

*əvvəli səh. 1-də*

Azərbaycan dünyada güclənən islamofobiya meyillərinə qəti şəkildə qarşı çıxır. 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan "Bakı Prosesi" müsəlman ölkələri ilə Avropa dövlətlərini bir araya gətirməklə mədəniyyətlərarası dialoqun dünya miqyasında təbliğinə təkan verib. Bu çərçivədə Azərbaycan tərəfindən təşkil edilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu BMT səviyyəsində önəmli beynəlxalq platforma kimi tanınıb.

Ərəb Dövlətləri Liqasının bütün üzv dövlətləri Azərbaycanın hazırda sədrlik etdiyi Qoşulmama Hərəkatının (QH) da üzvləridir. Azərbaycan bu təşkilat çərçivəsində də ərəb dövlətləri ilə geniş əməkdaşlıq imkanlarına malikdir.

Azərbaycanın yaxşı münasibətlərə malik olduğu ərəb dövlətlərindən biri də Birləşmiş Ərəb Əmirlikləridir (BƏƏ). Ölkələrimiz arasında iqtisadi əlaqələr yüksək səviyyədədir. Siyasi dialoq və beynəlxalq müstəvidə qarşılıqlı dəstəyə gəlincə, bu yaxınlarda BMT Təhlükəsizlik Şurasında Laçın-Xankəndi yolu




ətrafında vəziyyətə dair mətbuat bəyanatının layihəsi ilə əlaqədar BƏƏ-nin TŞ-nin qeyri-daimi üzvü kimi obyektiv mövqe nümayiş etdirməsini qeyd edə bilərik.

İki ölkə arasında əməkdaşlığın önəmini Prezident İlham Əliyev Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində çıxışında da diqqətə çatdırıb. "Bu mühüm toplantıda iştirak etmək üçün məni dəvət etdiyinə görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Bu auditoriya qarşısında çıxış etməkdən böyük şərəf hissi duyuram. Dünən bizim cənab Prezidentlə əla görüşümüz oldu. Bu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin bir çox sahədə strateji əhəmiyyətini bir daha təsdiqlədi", – deyə İlham Əliyev vurğulayıb.

Azərbaycan Prezidenti SOCAR və "Masdar" arasında 4 qiqavatlıq külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair razılaşmanın önəmini də qeyd edib: "Bu, hələ qısamüddətli bir layihədir. Ortamüddətli layihələr nəticəsində güclər 10 qiqavata qədər artırılacaq. Bu, tamamilə icra olunandır, bununla bağlı yol xəritəmiz var. Yalnız həmin layihə nəticəsində "Masdar" ilə apardığımız əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcəkdir".

Dövlət başçısı bildirib ki, Azərbaycanda investisiya mühiti çox müsbətdir. Biz neft və qaz sektoruna böyük sərmayələr cəlb etmişik. İndi isə hədəfimiz bərpaolunan enerjidir. Digər sözlə, planlarımız böyükdür və əminəm ki, işlərin öhdəsindən gələcəyik.

Qeyd edək ki, 2008-ci ildə təsis olunan Əbu-Dabi Dayanıqlılıq Həftəsi dünyanın dayanıqlı inkişafının sürətləndirilməsini hədəfləyən beynəlxalq platformadır. Əbu-Dabi Dayanıqlılıq Həftəsi bu məqsədə çatmaq üçün öz proqramını üç prinsip – qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya üzrə həyata keçirir.

Azərbaycanın bu mötəbər beynəlxalq tədbirə dəvət olunması Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edərək mühüm beynəlxalq layihələrin müəllifinə və təşəbbüskarına çevrilən ölkəmizin dünya miqyasında artan nüfuzunun göstəricisidir.

# Azərbaycan Laçın-Xankəndi yolundakı vəziyyətlə bağlı ATƏT-i məlumatlandırıb

Azərbaycan Ermənistanla dövlət sərhədinin delimitasiyası və demarkasiyası prosesinə başlamaq üçün səylər göstərib. 2022-ci ilin sentyabrında Ermənistanın sərhəddə silahlı təxribatı göstərdi ki, dövlət sərhədinin delimitasiyası və demarkasiyası prosesinə hər hansı üçüncü tərəflərin ilkin şərt və əsassız iddiaları olmadan ən qısa zamanda başlamaq lazımdır.

Bunu Vyanada ATƏT-in Daimi Şurasının xüsusi iclasında Azərbaycanın təşkilatdakı nümayəndəsi Rövşən Sadıqbəyli Ermənistan XİN başçısı Ararat Mirzoyanın çıxışına cavabında deyib.

O bildirib ki, Azərbaycan, həmçinin üçtərəfli bəyanata uyğun olaraq, regionda bütün nəqliyyat və kommunikasiya əlaqələrinin bərpasını yorulmadan təşviq edir. Bununla belə, beynəlxalq ictimaiyyətin bu təşəbbüsə güclü dəstəyinə və normallaşma gündəmini irəli aparmaq üçün göstərilən diplomatik səylərə baxmayaraq, irəliləyiş məhdud olaraq qalır: "Görünən odur ki, Ermənistan danışıqların imitasiyasına dair keçmiş praktikasına sadiq qalır və üzərinə götürdüyü öhdəlikləri vicdanla yerinə yetirmək əvəzinə, ilkin şərtlər irəli sürərək müxtəlif istiqamətlərdə əməli işləri süni surətdə ləngitməkdə davam edir".

Diqqətə çatdırılıb ki, 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatda qeyd olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələrini Azərbaycan ərazilərindən tam olaraq çıxarmayıb və Azərbaycan əraziləri daxilində müxtəlif hərbi fəaliyyətlərini davam etdirir. Ermənistan hələ də 1990-cı illərdə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi sərhəd boyu 8 anklav kəndini Azərbaycana qaytarmaqdan imtina edir.




Laçın yolu ilə qanunsuz hərbi birləşmə, Ermənistan silahlı qüvvələrinin və qeyri-qanuni silahlı birləşmələrin rotasiyası, silah və şəxsi heyətin qanunsuz olaraq Laçın yolu ilə Azərbaycan ərazisinə keçirilməsi bu yoldan humanitar məqsədlər – yalnız vətəndaşların, nəqliyyat vasitələrinin və malların hərəkəti üçün istifadə edilməsini nəzərdə tutan üçtərəfli bəyanatın kobud şəkildə pozulmasıdır.

Digər narahatedici məqam ondan ibarətdir ki, Laçın yolundan Ermənistan nəinki qanunsuz hərbi fəaliyyətlər üçün istifadə edir, həm də təbii sərvətlərin Azərbaycan ərazilərindən Ermənistana daşınması üçün də istifadə olunur. Ötən onilliklər ərzində Azərbaycan bilavasitə bunu təsdiqləyən təkzibedilməz sübutlar təqdim edib. Ermənistan əvvəllər də Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər göstərib ki, bu fəaliyyətlər ətraf mühitə ciddi zərər vurub.

Rövşən Sadıqbəyli bildirib ki, Azərbaycanın müvafiq orqanlarının faydalı qazıntı yataqlarına çıxışı, ekoloji qiymətləndirmə, əmlakın kadastr uçotu və təbii sərvətlərin inventarlaşdırılması və yerində monitorinq aparılmasına mane törədilməsi ölkə ictimaiyyətinin haqlı hiddətinə səbəb olub və Laçın-Xankəndi yolunda dinc etirazlara gətirib çıxardıb.

O qeyd edib ki, artıq Azərbaycan nümayəndə heyəti Laçın-Xankəndi yolundakı vəziyyətlə bağlı ATƏT Daimi Şurasına məlumat verib.

# Ekoloji aksiya davam edəcək: danışıqlarda hər hansı nəticə əldə olunmayıb



Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə yataqların qanunsuz istismarına etiraz olaraq 2022-ci il dekabrın 12-də başlanan aksiya davam edir.

Aksiyanın əsas tələbi Rusiya sülhməramlılarının müvəqqəti nəzarətindəki Azərbaycan ərazilərində ermənilər tərəfindən təbii sərvətlərin qanunsuz istismarına son qoyulması və Azərbaycanın aidiyyəti qurumlarının həmin ərazilərdə monitorinqinə imkan yaradılmasıdır. Hazırda bununla bağlı danışıqlarda hər hansı bir nəticə əldə olunmayıb.

Bunu Geoloji Kəşfiyyat Agentliyi İdarə Heyətinin sədri Əli Əliyev yanvarın 17-də keçirilən mətbuat konfransında deyib.

O bildirib ki, işğal dövründə Ermənistan və onun xarici havadarları əsasən iri yataqların istismarı ilə məşğul olublar. Beynəlxalq konvensiyalar və Azərbaycan Respublikasının qanunları pozularaq ölkəmizin ərazisində mineral xammal ehtiyatlarının istismarı aparılıb. Burada əsasən 30-a yaxın ölkənin şirkətləri iştirak edib. Bunlar Kanada, Avstraliya, ABŞ, İngiltərə, Almaniya, İsveçrə, Rusiya, Hindistan kimi ölkələrin şirkətləridir. Mineral xammal ehtiyatları qanunsuz istismar edilərək Ermənistana və oradan xarici ölkələrə daşınıb.

Əsasən iri qızıl və mis yataqlarında ciddi istismar işləri aparılıb. Həmin yataqlar Kəlbəcər rayonu ərazisindəki "Söyüdlü" və "Qızılbulaq" qızıl yataqları, Tərtər rayonu ərazisindəki "Dəmirli" mis yatağı, eyni zamanda Zəngilan rayonu ərazisindəki "Vejnəli" qızıl yatağıdır.

# Dünyanın baş aşpazı ölkəmizə gəlib

## "Worldchefs"in prezidenti Şuşaya gedəcək

Yanvarın 17-də Bakıda Dövlət Turizm Agentliyinin (DTA) təşkilatçılığı ilə Azərbaycan mətbəxinin təbliğatı istiqamətində beynəlxalq əməkdaşlıq imkanlarının qiymətləndirilməsi, eləcə də qastroturizmin inkişafı ilə bağlı məsələlər çərçivəsində "Azərbaycan kulinariyasının təbliğat perspektivləri" mövzusunda konfrans keçirilib.

DTA sədri Fuad Nağıyev qastroturizmin inkişafının turizmin vacib istiqamətlərindən biri hesab olunduğunu və son illərdə Azərbaycanın qastronomiya destinasiyası kimi təbliği sahəsində çoxistiqamətli işlərin həyata keçirildiyini qeyd edib. Bildirib ki, qastronomiya turizminin inkişafı yalnız Azərbaycanın milli mətbəxini deyil, həmçinin zəngin maddi mədəni irsini, tarixi ənənələrini və mədəniyyətini dünyaya tanıtmağa kömək edir.

Azərbaycanın bu sahədə zəngin potensialı onun "qastronomiya ölkəsi" kimi də tanınması üçün geniş imkanlar yaradır. Bu istiqamətdə Dünya Kulinariya Təşkilatları Assosiasiyası ("Worldchefs") ilə tərəfdaşlıq münasibətləri uğurla inkişaf edir.

Azərbaycan Milli Kulinariya Mərkəzinin (AMKM) direktoru Orxan Sadıqov milli mətbəxin qorunmasının ölkəmizin identifikasiyası və milli irsi üçün önəmli amil olduğunu qeyd edib, mərkəzin əsas fəaliyyətinin elmi-metodoloji bazanın təkmilləşməsinə yönəldiyini deyib. Bildirib ki, AMKM milli mətbəxi təşviq edən, milli yeməklərin reyestrini yaradan qurumlar üçün istinad yerinə çevriləcək elmi mərkəz olmağı hədəfləyir.

Konfransda iştirak edən Dünya Kulinariya Təşkilatları Assosiasiyasının prezidenti Tomas Quqler DTA və "Worldchefs" arasında əməkdaşlığın nəticələrindən məmnun olduğunu bildirib, azərbaycanlı kulinarlara peşəkar fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, Dövlət Turizm Agentliyinin dəvəti ilə Azərbaycana gələn Tomas Quqlerin Şuşaya səfəri də nəzərdə tutulub.




O, şəhərin tarixi yerləri ilə yanaşı, biomüxtəliflik baxımından zənginliyi və özünəməxsusluğuna görə seçilən Qarabağın mətbəx nümunələri ilə də tanış olacaq.

# Azərbaycan teatrı tarixində silinməz iz qoymuş sənətkar

## Tofiq Kazımovun doğum günündə məzarı ziyarət olundu

Yanvarın 14-də görkəmli teatr rejissoru, pedaqoq, Xalq artisti Tofiq Kazımovun (1923-1980) anadan olmasının 100-cü ildönümü tamam oldu. Bu münasibətlə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, nazirliyin əməkdaşları, mədəniyyət, incəsənət xadimləri və digər qonaqlar II Fəxri xiyabanda sənətkarın məzarını ziyarət etdilər.



Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Azər Paşa Nemətov anım mərasimində sənətkarla bağlı xatirələrini bölüşdü. Qeyd etdi ki, Azərbaycan teatrının, rejissorluq sənətinin inkişafında Tofiq Kazımovun böyük xidmətləri olub: "Tofiq Kazımovun tamaşaları, yetişdirdiyi aktyor nəsli Azərbaycan teatrında yeni səhifə açıb. Biz onu hər zaman dərin ehtiram hissi ilə xatırlayırıq".

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev görkəmli rejissoru Azərbaycan teatrı tarixində dərin iz qoymuş sənətkar kimi xarakterizə etdi. Bildirdi ki, Tofiq Kazımovun sənətkar kimi özünəməxsusluğunu qeyd edərkən həm də onun hansı ailədə doğulmasına diqqət etmək lazımdır: "O, teatr xadimi, şair, naşir Səməd Mənsurun ailəsində dünyaya göz açmışdı. Tofiq Kazımov quruluş verdiyi tamaşalarla bütün rejissorlardan fərqlənirdi. Tofiq Kazımov 1980-ci ildə dünyasını dəyişsə də, onun yaradıcılığı, sənət ənənələri bu gün də yaşayır".

Teatrşünas, Əməkdar incəsənət xadimi, professor İlham Rəhimli söylədi ki, Tofiq Kazımov Azərbaycan teatrında məkan genişliyi yaradıb: "Azərbaycanda lirik-psixoloji teatr məktəbinin yaranması, inkişafı və formalaşması Tofiq Kazımovun adı ilə bağlıdır. Tofiq Kazımov XXI əsrin düşüncə tərzini, teatr estetikasını, insanlıq fəlsəfəsini, cəmiyyət və şəxsiyyət problemlərini məhz XX əsrin ortalarında dərk edirdi...".

Teatrşünas, Əməkdar incəsənət xadimi, professor Məryəm Əlizadə də Tofiq Kazımovun yaradıcılığından söz açdı. Vurğuladı ki, Tofiq Kazımovun Azərbaycan milli sənət düşüncəsində qoyduğu iz onu milli teatr sənətinin bənzərsiz fenomeni kimi qavramağa və bu baxımdan fərdi yaradıcı metodunu araşdırmağa əsas verir.

Xatırladaq ki, Bakıda doğulan Tofiq Kazımov yeddiillik orta təsilini başa vurduqdan sonra teatr məktəbində oxuyub. II Dünya müharibəsində iştirak edən T.Kazımov 1943-cü ildə yaralanaraq ordu sıralarından tərxis edilib və Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında aktyor kimi fəaliyyətə başlayıb. 1945-1951-ci illərdə Moskvada Ümumittifaq Teatr Sənəti İnstitutunda rejissorluq üzrə təhsil alıb.

Uzun illər Azərbaycan Dövlət Akademik Dram Teatrında baş rejissor kimi fəaliyyət göstərən Tofiq Kazımov V.Şekspirin "Antoni və Kleopatra", "Hamlet", "Fırtına", İ.Əfəndiyevin "Sən həmişə mənimləsən", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", C.Məmmədquluzadənin "Ölülər", C.Cabbarlının "Aydın", M.S.Ordubadinin "Qılınc və qələm", Ə.Haqverdiyevin "Pəri cadu" və digər ədiblərin pyesləri əsasında bir-birindən maraqlı tamaşalar hazırlayıb.

Eyni zamanda Dövlət İncəsənət İnstitutunda dərs deyib, teatr üçün yeni sənətçilər nəslinin ortaya çıxmasına töhfələr verib. "Çağırış", "İşıqlı yollarda", "Şəfəq", "Qoçaq Polad" və digər pyeslərin müəllifi kimi tanınan T.Kazımov mətbuatda teatr sənətinə, müxtəlif tamaşalara resenziya və məqalələrlə də çıxış edib. Tofiq Kazımov 1980-ci il avqustun 2-də avtomobil qəzasında dünyasını dəyişib.

**Nurəddin Məmmədli**

# AMEA-nın elmi tədqiqat institutlarında struktur islahatları aparılır

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin yanvarın 16-da keçirilən iclasında ayrı-ayrı elmi tədqiqat institutlarında paralellik təşkil edən, yaxud ayrılıqda fəaliyyət göstərməsinə zərurət olmayan elmi şöbələr və sektorların işinə yenidən baxılması məsələsi müzakirə edilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bu məqsədlə elmi tədqiqat institutlarında struktur islahatlarının aparılmasının zəruriliyindən danışıb.

İclasda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi cərəyanlar sektorunun ləğv edilərək Ədəbiyyat nəzəriyyəsi şöbəsinə birləşdirilməsi barədə qərar qəbul edilib. Rəyasət Heyətinin qərarı ilə fəaliyyət istiqamətləri eyni olduğu üçün Folklor İnstitutundakı Musiqi folkloru şöbəsi ləğv edilib, Memarlıq və İncəsənət İnstitutundakı Xalq musiqisinin tarixi və nəzəriyyəsi şöbəsinin bazasında Musiqi folkloru adlı yeni şöbə yaradılıb.

Akademiyada albanşünaslıq üzrə tədqiqatların vahid mərkəzdən və sistemli şəkildə tədqiq olunmasını təmin etmək məqsədilə Memarlıq və İncəsənət İnstitutunun Alban memarlığı və incəsənəti şöbəsi Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Albanşünaslıq Elmi Mərkəzinin tərkibinə keçirilib.

İclasda AMEA-nın Humanitar Elmlər Bölməsinin hesabatı da dinlənilib. Hesabatı təqdim edən AMEA-nın I vitse-prezidenti v.i.e. akademik Arif Həşimov diqqətə çatdırıb ki, ötən il Humanitar Elmlər Bölməsi üzrə elmi müəssisələr tərəfindən 8 istiqamətin 39 problemi üzrə 98 mövzu, 504 iş üzərində tədqiqat aparılıb. Bunlardan 98 mövzudan 27-si, 504 işdən 240-ı tamamlanıb.

## Alimlərin sayı artır

Ötən il ölkəmizdə ümumilikdə 516 nəfərə fəlsəfə doktoru və elmlər doktoru dərəcələri verilib. Bu barədə Prezident yanında Ali Attestasiya Komissiyasının məlumatında bildirilir.

Məlumatda qeyd olunur ki, 2022-ci il ərzində 432 nəfər fəlsəfə doktoru, 84 nəfər elmlər doktoru alimlik dərəcəsi alıb.

Ötən il ümumilikdə 246 nəfərə, o cümlədən fəlsəfə doktoru elmi dərəcəsi almaq istəyən 222 və elmlər doktoru elmi dərəcəsi almaq istəyən 24 nəfərə imtina cavabı gəlib.

Həmçinin ötən il 200 nəfərə dosent, 28 nəfərə professor elmi adı verilib. Dosent elmi adı almaq istəyən 29 nəfərə, professor elmi adı almaq istəyən 7 nəfərə isə imtina cavabı verilib.

# Gənc Tamaşaçılar Teatrında "Mənim ağ göyərçinim" və "İnanıram"





Tariximizə hüzn və qürur günü kimi yazılan 1990-cı ilin 20 Yanvarının 33-cü ildönümü tamam olur. Bu münasibətlə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında yazıçı-dramaturq Tamara Vəliyevanın eyniadlı əsəri əsasında hazırlanmış "Mənim ağ göyərçinim" tamaşası növbəti dəfə göstəriləcək.

İlk və nakam məhəbbət haqqında səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, tərtibatçı rəssamı Şota Qlurjidze (Gürcüstan), musiqi tərtibatçısı Vladimir Neverov, rəqslərin quruluşçusu Vüsal Mehrəliyevdir.

Yanvarın 20-də nümayiş etdiriləcək tamaşada rolları Əməkdar artistlər Nəsibə Eldarova, İlham Əsədov, aktyorlar İlqarə Tosova, Günel Məmmədova, Mirzəağa Mirzəyev, Ramiq Nəsirov, Kərəm Hadızadə, Anar Səfiyev, Zülfiyyə Alhüseynova, Xalidə Şərifova, Rəşad Səfərov, Ədalət Əbdülsəməd, Hüsniyyə Əhmədova, Yasəmən Malik, Rövşən Abbasov ifa edəcəklər.

***

Yanvarın 21-də isə Gənc Tamaşaçılar Teatrında premyera var. Yazıçı-dramaturq Ülviyyə Heydərovanın "İnanıram" monopyesi əsasında hazırlanan tamaşa nümayiş olunacaq.

Səhnə əsəri müharibədə yeganə oğlunu itirmiş qadından bəhs edir. O, bir dağ kəndində arxeoloji ekspedisiyada iştirak edərkən yamacda tək ağac görür. Gənc arxeoloq bu ağacın kölgəsində oturarkən ana olacağını öyrənir. Məhz bu məqamdan sonra qadınla ağac arasında mənəvi bağ yaranır. Qadın müharibə səbəbindən bu yerdən uzun müddət uzaq düşür. Həmişə arzulayır ki, işğal altında qalan dağ yamacındakı bu ağacı oğluna göstərə bilsin. İllər sonra qadının oğlu həmin ərazini işğaldan azad edərkən anasının haqqında çox bəhs etdiyi ağacı tanımadan şəhid olur. Artıq qadının bu dünyada, sadəcə, bir sığınacağı var – yamacdakı tək ağac. Son dəfə ağacı görmək və məhz burada ömrünü başa vurmaq üçün azad olunmuş yamaca gəlir...

Vətən sevgisini bütün sevgilərdən daha üstün tutan şəhidlərimizə və onların analarına həsr edilən tamaşanın quruluşçu rejissoru və səhnə tərtibatçısı Elşad Rəhimzadə, musiqi tərtibatçısı Aygül Quliyeva, rejissor assistenti Sona Mustafayevadır. Ana obrazını Zemfira Əbdülsəmədova canlandırır.

Xatırladaq ki, səhnə əsəri ötən il Mədəniyyət Nazirliyi və "Teatro.az" sənət portalının "4.4" Qısa Tamaşalar Festivalında nümayiş etdirilərək ikinci yerə layiq görülüb.

## Bakıda rusiyalı rejissorun ustad dərsi



Xəbər verdiyimiz kimi, tanınmış rusiyalı aktyor, rejissor, "Qızıl maska" mükafatı laureatı Konstantin Soldatov Bakıda aktyorlara təlim keçib.

Yanvarın 14-də rusiyalı mütəxəssisin "Ritual mobil teatr laboratoriyası" layihəsi çərçivəsində keçdiyi ustad dərsində iştirakçılar oyunçunun ruhunun axtarışı, özünütəqdimat, özünə kənardan baxış kimi ifaçılıq vasitələrini sınayıblar.

K.Soldatov Moskvadakı B.Şukin adına Teatr İnstitutunun müəllimidir. Aktyorluq texnikası üzrə kursun müəllifi, "Müasir dram məktəbi", "Meyerhold mərkəzi" kimi layihələrin rejissorudur.

## Aleksandr Şarovskinin 75 illiyi münasibətilə — Akademik Rus Dram Teatrında yeni tamaşa

10-11 fevral tarixlərində Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında İsaak Babel və Şolom Aleyxemin əsərləri əsasında hazırlanmış "Benya "Kral" və başqaları" tamaşasının premyerası olacaq. "Kral" ləqəbli Benya yazıçı-dramaturq İsaak Babelin bir sıra əsərlərinin qəhrəmanıdır.




Premyera teatrın baş rejissoru Aleksandr Şarovskinin 75 illik yubileyinə həsr olunub.

Tamaşanı səhnələşdirən Əməkdar mədəniyyət işçisi Vladimir Neverov, quruluşçu rejissor isə yubilyarın özü, Xalq artisti Aleksandr Şarovskidir.

Bədii tərtibat Əməkdar mədəniyyət işçisi Aleksandr Fyodorova, xoreoqrafiya Xalq artisti Fuad Osmanova məxsusdur. Geyim üzrə rəssam Əməkdar mədəniyyət işçisi Olqa Abbasovadır. Tamaşaya teatrın bütün aktyorları cəlb olunub.

## "Heydər Əliyev İli"ndə VI Bakı Beynəlxalq Memarlıq Müsabiqəsi keçiriləcək

Azərbaycan Memarlar İttifaqı "Heydər Əliyev İli" çərçivəsində bir sıra layihə və tədbirlər həyata keçirməyi planlaşdırır. Bu sıraya Azərbaycan Memarlıq və İnşaat Universiteti və Beynəlxalq Memarlıq Akademiyasının Bakı Akademik Mərkəzi ilə birgə "XX əsr Azərbaycan memarlıq sənətində Heydər Əliyev fenomeni" mövzusunda elmi-praktik konfrans, eləcə də Beynəlxalq Memarlar İttifaqının dəstəyi, Azərbaycan Memarlar İttifaqının və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə VI Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin keçirilməsi də daxildir.

Bu barədə yanvarın 13-də Azərbaycan Memarlar İttifaqının yeni seçilmiş İdarə Heyətinin birinci təşkilati plenumunda məlumat verilib.

İttifaqın sədri Elbay Qasımzadə ötən 5 il üzrə fəaliyyət barədə danışıb. Qeyd olunub ki, növbəti 5 il üçün də təşkilatın qarşısında mühüm vəzifələr var. Vurğulanıb ki, ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində iqtisadiyyatın bütün sahələrində, o cümlədən tikinti və infrastruktur layihələrinin icrası istiqamətində mühüm işlər görülüb. Dövlətimizin başçısı İlham Əliyev tərəfindən respublikada şəhərsalma və memarlığın inkişafına da daim diqqət göstərilir. Şəhərlərimizin və işğaldan azad edilmiş rayonların baş planları tərtib olunur. Bu işlərə Azərbaycan Memarlar İttifaqı da öz töhfəsini verməlidir.

Tədbirdə ittifaqın katibliyinin və yaradıcılıq komissiyalarının yeni tərkibi barədə məsələyə baxılıb. Müzakirələrdən sonra ittifaqın 5 nəfərdən ibarət katiblik və 11 komissiya üzrə sədrlər seçilib.

Tədbirə dəvət olunan yubilyar memarlara ittifaqın fəxri fərmanları təqdim olunub.

2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Azərbaycan Memarlar İttifaqının tədbirlər planı müzakirə olunub və əlavə təkliflər qeyd edilib.

## Tofiq Kazımovun 100 illiyi TÜRKSOY-da qeyd edildi

*əvvəli səh. 1-də*

Bildirildi ki, böyük sənətkarın quruluş verdiyi səhnə əsərlərini tamaşaçıya sevdirən mühüm cəhətlər Azərbaycanın teatr məktəbində parlaq iz açdı.



Türk dünyasının zəngin mədəniyyətini, incəsənətini əks etdirən TÜRKSOY-un bu il 30-cu ildönümünün olduğunu xatırladan Sultan Raev bildirdi ki, bu il həm də Azərbaycan peşəkar milli teatrının yaranmasının 150-ci ildönümüdür və Tofiq Kazımovun da Azərbaycan teatrında özünəməxsus dəst-xətti olub.

Səfir Rəşad Məmmədov bildirdi ki, Tofiq Kazımov yaradıcılığı ilə Azərbaycan teatr tarixində önəmli yer tutan şəxsiyyətdir və təkcə teatr sənətində bütün Türk dünyasının ortaq dəyərlərindən biridir.




Professor İsrafil İsrafilov Tofiq Kazımovun yaradıcılığı ilə bağlı məruzəsində görkəmli rejissorun Azərbaycan teatrına verdiyi töhfələrdən, teatra gətirdiyi yeniliklərdən ətraflı bəhs etdi.

İzmir Dövlət Teatrının baş rejissoru Murad Çidamlı professor İsrafil İsrafilovun qələmə aldığı "Tofiq Kazımovun rejissorluq dərsləri" kitabı haqqında danışdı.

Xalq artisti Cahangir Novruzov, türkiyəli teatrşünas Atabəy Barış rejissorun özünəməxsus yaradıcılıq yolu ilə bağlı fikirlərini bölüşdülər.

Mərasimdə iştirak edən Tofiq Kazımovun qızı Aytən Kazımova atası ilə bağlı xatirələri dilə gətirdi, onun yaradıcılığına, sənət irsinə verilən yüksək dəyərə görə minnətdarlığını ifadə etdi.

**Mehparə Sultanova**
**Ankara**

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Şuşa ilə bağlı layihələri davam etdirəcək

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva dünyaca məşhur azərbaycanlı fotoqraf Reza Deqati ilə görüşüb.



Günay Əfəndiyeva rəhbərlik etdiyi qurum tərəfindən 2022-ci ilin dekabrında Türkiyənin Bursa şəhərində təşkil olunan "Şuşa günləri" tədbirləri çərçivəsində Reza Deqatinin "Azərbaycanın incisi Şuşa" adlı fotosərgisini xatırlayaraq, onun Bursa ictimaiyyəti tərəfindən böyük maraqla qarşılandığını qeyd edib.

Fondun prezidenti Türk dünyasının çoxəsrlik zəngin irsinin geniş təbliğinin önəmindən, təşkilatın 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmiş Şuşa şəhəri ilə bağlı nəzərdə tutulan layihələrindən söz açıb.

Reza Deqati qurumun türkdilli xalqların tarixinin, elmi-mədəni irsinin öyrənilməsi və milli-mənəvi dəyərlərin təbliği istiqamətində fəaliyyətini yüksək qiymətləndirib. Məşhur fotoqrafın Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun gələcək layihələrində fəal iştirakı ilə bağlı fikir mübadiləsi aparılıb.

# Müasir Azərbaycan dövlətinin qurucusu


Yerlərdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində "Heydər Əliyev İli" ilə bağlı tədbirlər keçirilir.

**Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ).** Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzi "Heydər Əliyevin qədim Gəncə şəhərinə qayğısı" mövzusunda tədbir keçirib. Bildirilib ki, Gəncə şəhəri hər zaman Ulu öndərin diqqət və qayğısı ilə əhatə olunub. Onun ölkəyə rəhbərliyi dövründə Gəncədə iri sənaye müəssisələri, səhiyyə, təhsil, mədəniyyət ocaqları tikilib istifadəyə verilib.

Goranboy Dövlət Rəsm Qalereyasında "Heydər Əliyev İli" çərçivəsində Ulu öndərə həsr olunmuş sərgi təşkil edilib.

Naftalan Şəhər Heydər Əliyev Mərkəzində isə "Ulu öndər Heydər Əliyevin mənalı həyatı, zəngin siyasi irsi hər birimizə örnəkdir" adlı tədbir keçirilib.

***

**Ağdaş RMİ.** Zərdab Rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev İli" münasibətilə Ümummilli liderin həyatı və siyasi fəaliyyətinə həsr edilmiş sənədli filmlərin nümayişinə başlanılıb.

***

**Biləsuvar RMİ.** Salyandakı Heydər Əliyev Mərkəzində keçirilən konfransda rayon ziyalıları, tarixçilər, mədəniyyət və təhsil işçiləri çıxış edərək görkəmli dövlət xadiminin siyasi irsi və ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycanın keçdiyi böyük uğurlu inkişaf yolundan bəhs ediblər.

Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyi və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə təşkil olunan tədbirdə Ulu öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş edilib, məruzələr dinlənilib.

***

Ağstafa RMİ. Ağstafa Tarix-Diyarşünaslıq Muzeyi, Hüseyn Arifin Ev-Muzeyi və şəhər 1 saylı Folklor klubunun birgə təşkilatçılığı ilə "Əvəzolunmaz şəxsiyyət" adlı tədbir keçirilib.

Tovuz Rayon Heydər Əliyev Mərkəzi və rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Azərbaycanın özü qədər əbədi" mövzusunda konfrans və kitab sərgisi təşkil olunub. Rayonun Düz Qırıqlı kənd Musiqi məktəbində isə "Müstəqilliyimizin qarantı" mövzusunda tədbir təşkil edilib.





***

**Xaçmaz RMİ.** Qusar Rayon Mərkəzi Kitabxanasının oxu zalında "2023-cü il "Heydər Əliyev İli"dir" adlı sərgi təşkil edilib.

***



**Kürdəmir RMİ.** Kürdəmir şəhərindəki Heydər Əliyev Mərkəzində "Xalqın lideri" adlı tədbir keçirilib. Çıxış edənlər Ulu öndərin Azərbaycanın dövlətçilik tarixindəki müstəsna xidmətlərindən danışıblar. Sonda "Xalqın adamı" sənədli filmi nümayiş olunub.



***

**Bərdə RMİ.** Tərtər Rayon Heydər Əliyev Mərkəzində "100 illik Azərbaycan tarixi – Heydər Əliyev" adlı yeni layihəyə başlanılıb. Layihə çərçivəsində keçirilən ilk tədbirdə dahi şəxsiyyətin müasir müstəqil Azərbaycan dövlətinin qurulması və inkişafında müstəsna rolundan danışılıb. Ümummilli liderə həsr olunan videoçarx nümayiş etdirilib.

***

**Masallı RMİ.** Masallı Rayon Mərkəzi Kitabxanasında "Heydər Əliyev – 100" adlı sərgi təşkil edilib. Kitabxanada, həmçinin "Heydər Əliyev – tarixi şəxsiyyət və tarix yaradan şəxsiyyət" mövzusunda tədbir keçirilib.

## Vətən sizi heç vaxt unutmayacaq



Sumqayıt RMİ Qubadlı rayon nümayəndəliyi tərəfindən Sumqayıt şəhər Şəhidlər xiyabanında Birinci Qarabağ müharibəsi şəhidi Hikmət Zamanovun (1973-1994) xatirəsi yad olunub. Ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. H.Zamanovun həyat və döyüş yolu haqqında məlumat verilib.

***

Şəmkir RMİ Şəmkir rayon MKS-nin Qaralar və Qılıncbəyli kənd kitabxana filialları Milli Qəhrəman, Birinci Qarabağ müharibəsi şəhidi Əliyar Əliyevə (1957-1992) həsr olunmuş "Vətən sizi unutmaz" başlığı altında tədbir keçirib. Çıxış edənlər Əliyar Əliyevin həyatı və qəhrəmanlıqları haqqında danışıblar.

***

Ağstafa RMİ Ağstafa Rayon Mərkəzi Kitabxanasının əməkdaşları Vətən müharibəsi şəhidi İbrahim Cəfərovun doğum günü münasibətilə xatirəsinə hazırlanan bulaq-abidə kompleksini, məzarını və ailəsini ziyarət ediblər.

## Gəncədə Cavad xanın xatirəsi anılıb



Gəncədə Azərbaycanın vətənpərvər oğlu, Gəncə xanlığının sonuncu hökmdarı Cavad xan Ziyadoğlunun (1748-1804) xatirəsi yad edilib.

Anım mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, "Cavad xan" Tarix və Mədəniyyət Fondunun birinci vitse-prezidenti Müzadil Həsənov, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə Cavad xanın Gəncənin mərkəzində yerləşən türbəsi ziyarət olunub, məzarı üstə tər çiçəklər düzülüb, ruhuna dualar oxunub.

Qeyd edək ki, 1786-cı ildən Gəncə xanlığına rəhbərlik edən Cavad xan 1804-cü ildə yanvarın 3-də (yeni təqvimlə 15 yanvar) general Pavel Sisianovun başçılıq etdiyi rus qoşunları ilə qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olub, şəhər işğal olunub. Bununla da 1747-ci ildə yaradılan Gəncə xanlığı tarixə qovuşub.

## Kəlbəcərin qışı – rəssam təbiət





Respublikamızın dilbər guşələrindən olan Kəlbəcər rayonu əsrarəngiz gözəlliyə, zəngin təbii sərvətlərə malikdir. Kəlbəcər sanki bir təbiət möcüzəsidir. Bu möcüzəni, təbiət gözəlliklərini nə sözlər, nə rəssam fırçası, nə şair qələmi ifadə edə bilər.

Kəlbəcərin qışının təbiətin özü tərəfindən rəsm edilən mənzərələri (fotoqraf Hikmət Əsgərov, AZƏRTAC) bunu bir daha təsdiq edir. Dağları, qayaları, ağacları naxışlarla bəzəyən ağ libas, qarın və şaxtanın yaratdığı tablolar insanı valeh edir.

## 20 Yanvar – milli qürur günümüz

Bölgələrdəki mədəniyyət müəssisələrində 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə bağlı anım tədbirləri təşkil olunub.

Sabirabad RMİ Sabirabad Rayon Heydər Əliyev Mərkəzində 20 Yanvar faciəsinin 33-cü ildönümünə həsr edilən sərgi hazırlanıb. Sərgidə istiqlal mübarizəsinə qalxan xalqımıza qarşı törədilən qanlı faciəni əks etdirən fotolar, kitablar, eləcə də dövri mətbuatda dərc olunan məqalələr yer alıb.

***

Şəmkir RMİ-nin əhatə etdiyi Daşkəsən rayonundakı Heydər Əliyev Mərkəzində "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyevin rolu" mövzusunda seminar keçirilib. Çıxışlarda 20 Yanvar hadisələrinə Ulu öndər tərəfindən verilən siyasi qiymətdən söz açılıb. Mərkəzin foyesində uşaq, yeniyetmə və gənclərin əl işlərindən ibarət "20 Yanvar milli qürur günümüzdür" adlı rəsm sərgisi nümayiş olunub.

***





Şəki RMİ üzrə Şəki şəhər 2 nömrəli Musiqi məktəbinin təşkil etdiyi tədbirdə çıxış edənlər 20 Yanvar faciəsinin ağrı-acılarından, azadlıq üçün canından keçən qəhrəmanlardan söhbət açıblar.

***

Ağstafa RMİ-nin tabeliyindəki Qazax Rayon Mədəniyyət Mərkəzində "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli lider Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib. Bildirilib ki, Ümummilli lider həmin günü xalqımızın qürur günü və tarixi qəhrəmanlıq nümunəsi kimi qiymətləndirib.

***

Masallı RMİ-nin tabeliyindəki Masallı Rayon Heydər Əliyev Mərkəzində "Qara Yanvar"ın ildönümü münasibətilə kitab sərgisi təşkil olunub.

Masallı Dövlət Rəsm Qalereyasında isə "Qanlı şənbə" adlı sərgi keçirilib. Rəsm dərnəyi üzvlərinin əl işləri və fotolar nümayiş etdirilib.

Masallı Tarix-Diyarşünaslıq Muzeyində Mahmudavar kənd tam orta məktəbinin müəllim və şagirdlərinin iştirakı ilə "Unudulmaz tarix" mövzusunda tarix dərsi keçirilib.

Yardımlıdakı Heydər Əliyev Mərkəzində isə "Qanlı Yanvar" – 33" adlı sərgi təşkil edilib. Ayın sonunadək davam edəcək sərgidə faciə haqqında məlumat, məşum gecənin qurbanlarının fotoları, vətənpərvərlik mövzusunda kitablar nümayiş olunur.

**Hazırladı: N.Məmmədli**

## Regional Elmi Mərkəz hansı tədqiqatları aparır?



Lənkəran Regional Elmi Mərkəzinin əməkdaşları 2022-ci ildə elmi-tədqiqat işlərini bölgədə çay, sitrus və subtropik bitkiləri, bölgənin floristik tərkibinin öyrənilməsi, cənub bölgəsində ekoloji və genetik faktorlar, tibbi nəzərətin uzunömürlülük fenomeninə təsirinin öyrənilməsi kimi mövzulara həsr ediblər. Bundan əlavə, respublikanın cənub-şərq regionunun folklor, etnoqrafik, arxeoloji və numizmatik abidələrin aşkarlanması və s. barədə tədqiqat aparılıb.

Bu barədə yanvarın 14-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Lənkəran Regional Elmi Mərkəzinin 2022-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat yığıncağında məlumat verilib.

Toplantıda çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bildirib ki, akademiyanın tarixində ilk dəfə olaraq illik elmi hesabat regionun özündə dinlənilir. AMEA-nın prezidenti diqqətə çatdırıb ki, Lənkəran Regional Elmi Mərkəzinin Folklor-etnoqrafiya arxeologiya şöbəsinin mövzu-əhatə dairəsi genişləndirilərək Tarix və ədəbiyyat şöbəsi adlandırılıb. Mərkəzin özünün kitabxanasının yaradılmasına da qərar verilib.

## Naxçıvan Dövlət Xalça Muzeyinin yubileyi qeyd olunub

Kamil Əliyev adına Naxçıvan Dövlət Xalça Muzeyinin 25 illiyi münasibətilə tədbir keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan MR-in mədəniyyət naziri Natəvan Qədimova milli xalçaçılıq nümunələrimizin saxlanc yeri olan muzeyin 25 illik yubileyinin əlamətdar hadisə olduğunu bildirib. Deyib ki, 1999-cu ilin oktyabr ayında Ulu öndər Heydər Əliyevin muxtar respublikanın yaradılmasının 75 illiyi ilə əlaqədar Naxçıvana səfəri zamanı muzeyə baş çəkməsi mədəniyyət ocağının tarixində yaddaqalan hadisələrdən olub.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev mədəniyyətimizin digər sahələri kimi, xalça sənətinin inkişafını da diqqətdə saxlayır. Prezidentin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" bunun bariz nümunəsidir.

Qeyd olunub ki, Naxçıvan MR Nazirlər Kabinetinin 15 yanvar 1998-ci il tarixli Qərarı ilə yaradılan Naxçıvan Dövlət Xalça Muzeyinə 2022-ci ildə Xalq rəssamı Kamil Əliyevin adı verilib. Hazırda muzeydə 3 mindən artıq eksponat mühafizə olunur.

Naxçıvan MR Rəssamlar Birliyinin sədri Əməkdar rəssam Ülviyyə Həmzəyeva Lətif Kərimov, Kamil Əliyev kimi xalçaçı rəssamların bu sənətin inkişafındakı rolundan, milli xalça sənətimizin Avropa və rus rəssamlığına təsirindən bəhs edib.

Muzeyin direktoru Ülviyyə Məmmədova mədəniyyət ocağı haqqında məlumat verdikdən sonra "Azərbaycan xalçaları" filmi nümayiş olunub.

Sonda incəsənət ustalarının ifasında muğam və xalq mahnıları səsləndirilib.

## Cəfər Cabbarlının Xızıdakı ev-muzeyinə küləyin vurduğu zərər aradan qaldırılıb



Xəbər verildiyi kimi, yanvarın 13-də günün ikinci yarısında əsən güclü külək ölkənin bir sıra bölgələrində fəsadlar törədib, o cümlədən elektrik xətlərinə, binaların dam örtüyünə zərər vurub.

Güclü külək Sumqayıt Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi Xızı rayonunda Cəfər Cabbarlının ev-muzeyinin dam örtüyünün bir hissəsini uçurdub. Muzeyin binasını elektrik enerjisi ilə təmin edən xətlər qırılıb.

Hadisə sonra Mədəniyyət Nazirliyi tərəfindən dərhal verilən tapşırığa əsasən Sumqayıt RMİ-nin nümayəndələri ev-muzeyə baxış keçirib, binaya və elektrik təsərrüfatına dəymiş zərər qiymətləndirilib.

Yanvarın 14-də muzeyə elektrik enerjisinin verilişi bərpa edilib. Binanın dam örtüyünün bərpası ilə bağlı işlərə başlanılıb. Yanvarın 15-də muzeyin binasının dam örtüyündə n bərpa işləri başa çatdırılıb.

Qeyd edək ki, Cəfər Cabbarlının (1899-1934) Xızıdakı ev-muzeyi ədibin həyat yoldaşı Sona xanım Cabbarlının təşəbbüsü ilə 1956-cı ildə ictimai əsaslarla fəaliyyətə başlayıb. 13 ildən sonra muzey olaraq dövlət qeydiyyatına alınıb. Muzeyin fonduna ümumilikdə 500-dən çox eksponat daxildir.

## Cəbrayılın yenidən qurulmasında ictimaiyyətin fikirləri nəzərə alınacaq

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Cəbrayıl rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Prezidentin xüsusi nümayəndəsi hazırda Cəbrayılda aparılan tikinti-quruculuq işlərindən, planlaşdırılan layihələr, tikiləcək kəndlər, infrastruktur layihələri haqqında rayon ictimaiyyətinin nümayəndələrinə ətraflı danışıb.

Cəbrayıl ziyalıları rayonun gələcək inkişafı ilə bağlı fikirlərini bölüşüblər. Vahid Hacıyev rayonun yenidən qurulmasında ictimaiyyət nümayəndələrinin fikirlərinin nəzərə alınacağını vurğulayıb.

# Yaşamaq bir sənətdirsə...

İllər ötür və bizim bir zamanlar səhnədə, teleekranda, kinolentlərdə yaddaşımızda iz salan gənc, şən, həyat dolu aktyorlarımız yaşlanır. Bu zaman qəribə, ağır bir reallıq güc gəlir adama. Bir-birini külək kimi əvəz edən fəsillər ötdükcə, bir az da romantik təsvir etsək, "Dağları, daşları qocaldan zaman, Bilmirəm, bəs niyə özü qocalmır" sualının qarşısında aciz qaldıqca mütəəssir olursan...

Bütün hallarda, necə və nəyə sərf olunmasından asılı olmayaraq, zaman ötür, ömür keçir. Səhnə, sənət adamları isə buna rəğmən daim sənətdə olmaq, tamaşaçı alqışı ilə ovunmaq kimi bir səadət üçün çalışıb çarpışırlar. Hər bir aktyorun, sənət insanının mütləq öz tamaşaçısı, sevəni olur.




Cəlil Məmmədquluzadənin "Ölülər"nin budəfəki tamaşası onun yubileyinə həsr olunub.



Bu mənada xeyli sənətsevər Xalq artisti Əli Nurun 75 illik yubileyi münasibətilə yanvarın 14-də Akademik Milli Dram Teatrının salonuna toplaşmışdı. Bununla ona – artıq yaşlı aktyor nəslinin sırasında yer alan Əli Nura da rəğbətlərini bir daha isbat etmək istəyirdilər.

Bəli, yanvarın 10-da yaşının üstünə yaş da gələn, yaşa dolmaq gerçəyinə bir də şahid oğul ağrısını qata-qata illəri qarşılayan və bütün ağrılara rəğmən qəlbində ümidə də bir köşə saxlayan Əli Nur artıq 75 yaşındadır. Budur, qamətini şax tutub, baxışlarını duruldub, nisgilini səhnənin ardında qoyub şövq və həvəslə tamaşaçıları qarşısına çıxıb.

Az sonra oynayacağı tamaşadakı qəhrəmanın obraz-qiyafəsində salondakılar ilə salamlaşır.

Teatrın bədii rəhbər-direktoru, Xalq artisti, həmçinin Teatr Xadimləri İttifaqının sədri Azərpaşa Nemətov sənətkarı yubiley yaşı münasibətilə təbrik edir, onun səhnə fəaliyyəti haqqında danışır, aktyor məziyyətlərini sadalayır. Onun istər Sumqayıt Dövlət Dram Teatrında, istərsə də 40 ilə yaxın çalışdığı Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında bir-birindən maraqlı, yaddaqalan obrazlar yaratdığı, tamaşaçı sevgisi qazandığı vurğulanır. Aktyorun sənət fəaliyyətinin dövlət tərəfindən yüksək qiymətləndirildiyi, onun fəxri adlara, mükafatlara layiq görüldüyü qeyd edilir.

Yubilyara Mədəniyyət Nazirliyinin, Akademik Milli Dram Teatrının təbrik məktubu və Azərbaycan Teatr Xadimləri İttifaqının "Sənətkar" medalı təqdim edilir.

Ona ünvanlanan xoş sözlərdən təsirlənən aktyor diqqətə görə hər kəsə təşəkkür edir. Səhnədə olmağın, tamaşaçılar qarşısında hər bir çıxışın onu hədsiz xoşbəxt etdiyini dilə gətirir.

Bir neçə dəqiqədən sonra Əli Nuru yenə səhnədə görürük. Bu dəfə "Ölülər"in Hacı Həsən ağası kimi.

Xatırladaq ki, tamaşa 2019-cu ildə Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanıb və Cəlil Məmmədquluzadənin 150 illiyi münasibətilə sənətsevərlərin ixtiyarına verilib. Səhnə əsərinin elmi məsləhətçisi akademik İsa Həbibbəylidir. Azərpaşa Nemətovun quruluşçu rejissoru olduğu tamaşada böyük bəstəkar Qara Qarayevin illər öncə "Ölülər" əsəri üçün bəstələdiyi musiqi yeni versiyada təqdim edilib.

Şeyx Nəsrullahı Xalq artisti Nurəddin Mehdixanlı, Kefli İsgəndəri Əməkdar artist Anar Heybətov oynayırlar. Digər rolları Xalq artistləri Laləzar Mustafayeva, Rafiq Əzimov, Hacı İsmayılov, Kazım Abdullayev, Sabir Məmmədov, Əməkdar artistlər Aslan Şirin, Elşən Rüstəmov, Elxan Quliyev, Mətləb Abdullayev, Məzahir Cəlilov, Kazım Həsənquliyev, Mirzə Ağabəyli, aktyorlar Elçin Əfəndi, Ramin Şıxəliyev, Vüsal Mustafayev, Canəli Canəliyev, Elnur Qədirov, Rüstəm Rüstəmov, Xədicə Novruzlu, Ləman İmanova, Rada Nəsibova və Firuzə Balayeva ifa edirlər.

Əsərdəki mənəvi əsarət, fanatizm və cəhalət aktyorların ifasında özünəməxsus çalarlarla açılır. Bundan əvvəl tamaşanın ümumi planında xurafata uymuş avam hacılardan birinin obrazında yer alan, amma miqyasından asılı olmayaraq, rolunu tamaşaçısına bacarıqla göstərən Əli Nur bu dəfə Hacı Həsən ağa kimi əsl ovqatında idi: məmnun və həyəcanlı. Məncə, yaşından və təcrübəsindən asılı olmayaraq, məsuliyyətli aktyor hər səhnəyə çıxanda məhz tamaşaçı ilə ünsiyyətin həyəcanı və ondan sonrakı sevincini məhz belə duymalıdır.



Milli teatrımızın əvəzsiz dramaturqu Cəfər Cabbarlının təbirincə desək, aktyor, hər şeydən əvvəl, canlı bir ədəbiyyatdır. Ədəbin yuxusuz gecələr boyu çalışıb ərsəyə gətirdiyi əsəri, onun qəhrəmanını canlandıraraq... Və aktyor bir rəssamdır ki, özü öz əsəridir...

**Həmidə Nizamiqızı**

# Əsas qəhrəmanlar Buzovna qayalığı və onlara çırpılan dalğalardır...

## Fərid Qədirlinin "Yenidən doğulma" adlı fotosərgisi

Abşeronun əzəmətli görkəmə malik Buzovna qayalığı şair Mikayıl Müşfiqin, eləcə də Səttar Bəhlulzadə, Tahir Salahov, Cavad Mircavadov kimi görkəmli rəssamlarımızın ilham mənbəyi olub. Bu mənzərə həm də milli filmlərimiz üçün çəkiliş meydançasına çevrilib, "Koroğlu", "Yeddi oğul istərəm", "Qorxma, mən səninləyəm!" kimi ekran əsərlərində kadrlara yansıyıb. Hə, bir də bu qayaların fonunda dahi Müslüm Maqomayevin oxuduğu möhtəşəm mahnıları...

Ölkəmiz üçün ağrılı olan müstəqilliyin ilk illərində şahidinə çevrildiyimiz hərc-mərclikdən Buzovna qayalığı da öz "nəsibini aldı". Füsunkar sahil qanunsuz olaraq ayrı-ayrı fərdlər tərəfindən zəbt edildi, qayalar ucaldılan hasarların məngənəsində sıxılmağa başladı. İki kilometrdən uzun sahil zolağını əhatə edən unikal qayalıq get-gedə kiçildi. 2022-ci ilin aprel ayına kimi Buzovna qayalığından yalnız kiçik bir hissə qalmışdı. Buzovna ictimaiyyəti, xüsusilə gənclərin həmin ilin yayında "Qayalara azadlıq!" şüarı ilə başlatdıqları aksiya qısa zamanda geniş rezonans doğurdu. Ekofəalların səsinə səs verən Prezident İlham Əliyevin göstərişi ilə sahil qanunsuz tikililərdən təmizləndi. Bu zəruri addım Buzovna qayalığının mövcudluğunun təminatı oldu...







***

Fotoqraf Fərid Qədirlinin yanvarın 13-də Bakı Fotoqrafiya Evində təşkil edilən "Yenidən doğulma" adlı fotosərgisi də bu qayalıqların ikinci həyatına həsr olunub.

Sərginin açılışında çıxış edən Xalq rəssamları Arif Əziz, Aydın Rəcəbov, Əməkdar incəsənət xadimi, kinooperator Rafiq Qəmbərov, Əməkdar rəssam Vüqar Əli, sənətşünas Sevil Kərimova Fəridin yaradıcılığı haqqında söz açdılar. İxtisası operator olan F.Qədirlinin rəssam və fotoqraf kimi sənətə yüksək peşəkarlıqla yanaşmalarını dəyərli bir tapıntı kimi qiymətləndirdilər.

Sərgidə yer alan fotoları Abşeron mənzərələrinə yeni baxışı kimi səciyyələndirən müəllif bildirdi ki, Buzovna qayalığından fotoreportaj etməsi həm də sosial mahiyyət daşıyır: "Sahilləri tərəfindən qayalıq ərazidə aparılan iməciliklər və abadlıq işlərini fotokameranın yaddaşına köçürməyi özümə borc bildim".

Yanvarın 19-dək davam edəcək sərgidə təqdim olunan fotoların əsas qəhrəmanları Buzovna qayaları və onlara çırpılan dalğalardır.

Bildirək ki, ekofəal və peşəkar fotoqraf Fərid Qədirli Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini kinooperator ixtisası üzrə bitirib. Bir neçə ildir fotoqrafiya ilə məşğul olur, Azərbaycan Fotoqraflar Birliyinin üzvüdür. Birliyin təşkil etdiyi sərgi və müsabiqələrdə iştirak edir. 2015-ci ildə "Azərbaycan ailəsi" film festivalında "Sosial şəbəkələrdə ən çox bəyənilən fotoşəkil" nominasiyasında qalib olub.

**Lalə**

# "Gənclərə dəstək" layihəsi istedadlarının "Qış fantaziyası"

Bakıdakı Rus Evində (Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi) Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gənclərə dəstək" layihəsinin iştirakçısı olan istedadların "Qış fantaziyası" adlı konserti keçirilib.



RİMM-in mətbuat xidmətindən bildirilib ki, konsertdə Zəhra Zeynalova, Aylin Babazadə, Aydan Nəsirli, Nərmin Kərimli, Ayşə Əlizadə, Gülarə Bayramova, Zümrüd Məmmədova, Nərmin Quliyeva və Fazil Əlişli (piano), Ömər Bəbirli və Nailə Növrəsli (vokal), Adnan Kərimli (zərb alətləri), Davud Rüstəmov və Zəhra Rüstəmova (tar), Elmira Dadaşova və Sura Rüfət (violin), Cəlalə İsmayılzadə (piano, violonçel), həmçinin konsertmeysterlər Lalə Bağırzadə, Dilarə Əhmədova, Svetlana Əhmədova, Arzu Səfərova çıxış ediblər.

Gənclərin ifasında Azərbaycan və dünya klassik bəstəkarlarının əsərləri alqışlarla qarşılanıb. Sonda bütün iştirakçılara diplomlar təqdim olunub.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (4)

### 1971-ci il 9 dekabr

Bakıda Azərbaycan Teatr Cəmiyyətinin 5-ci qurultayı keçirilib. Azərbaycan KP-nın Birinci katibi Heydər Əliyev yaradıcılıq təşkilatlarının qurultaylarına şəxsən qatılır, təbrik məktubları göndərir, bu vəsilə ilə mədəniyyətin müvafiq sahəsi ilə bağlı fikir və tövsiyələrini diqqətə çatdırırdı.

Azərbaycan KP MK-nın qurultaya təbrik məktubundan:

"...Teatr kollektivlərinin əsas diqqəti tamaşaların ideya və bədii səviyyəsinin yüksəldilməsinə, dramaturqlarla yaradıcılıq əməkdaşlığı şəraitində sovet tamaşaçısının getdikcə artan tələblərinə və yeni insan tərbiyəsi vəzifələrinə cavab verən əsərlərin yaradılmasına yönəldilməlidir...

Azərbaycan Teatr Cəmiyyəti tamaşaların ideya-bədii səviyyəsinin yüksəlməsinə yardım edən səhnə əsərlərinin yaradılmasına, repertuarın düzgün formalaşmasında, teatr işçilərinin professional ustalığının və nəzəri hazırlığının daha da artmasında teatrlara kömək etməli, yaradıcılıq əlaqələrinin inkişafına və qardaş xalqların teatr sənətinin təcrübəsi ilə qarşılıqlı zənginləşməyə yardım göstərməlidir...".

### 1972-ci il 20 yanvar

SSRİ-nin aparıcı mətbu nəşri – "Pravda" qəzetində Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyevin ideoloji işin təşkili ilə bağlı məqaləsi dərc olunub. Məqalədə respublikada mətbuat, mədəniyyət və ədəbiyyat sahəsində vəziyyətdən də bəhs edilib.

"...Son vaxtlar kütləvi məlumat və təbliğat orqanlarının – mətbuatın, televiziyanın, radio verilişlərinin rolunu artırmaq sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir... İdeya və ədəbi səviyyəsi aşağı olan materiallar dərc etmiş "Təşviqatçı" jurnalının, qadınlar arasında iş məsələlərinin işıqlandırılmasında lazımi ardıcıllıq göstərməyən "Azərbaycan qadını" jurnalının, obivatel meyillərini əks etdirən məqalələrə öz səhifələrində yer vermiş "Qobustan" almanaxının işindəki səhvlər və nöqsanlar göstərilmişdir. Respublika Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, respublika Mədəniyyət Nazirliyinin fəaliyyətini yaxşılaşdırmaq üçün tədbirlər görülmüşdür. İdeoloji fəaliyyətin kitabnəşriyyat işi kimi mühüm sahəsinə də böyük diqqət yetirilir, çünki bir sıra illər ərzində respublikada mövcud olan yaramaz iş qaydasına görə nəşriyyat və Dövlət Mətbuat Komitəsi işçilərinin subyektivizmi və səhlənkarlığı nəticəsində az aktual mövzularda yazılan, bəzən də heç bir əhəmiyyəti olmayan bir çox kitab nəşr edilmişdir...

...Ayrı-ayrı yazıçılar həyatımızın proseslərini, müasirlərimizin daxili aləmini səthi, sönük, hətta təhrif olunmuş şəkildə əks etdirirlər... Teatrların yaradıcılıq həyatında da hələ həll edilməmiş problemlər vardır. Məsələn, onların bəzilərinin repertuarında məzmunu o qədər də dərin olmayan əyləndirici pyeslər üstün yer tutur...".

### 1972-ci il 9 fevral

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Səməd Vurğun adına Rus Dram Teatrının 50 illiyinə həsr olunmuş təntənəli gecədə çıxış edib.

### 1972-ci il 19 aprel

Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) 50 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirilib. Heydər Əliyev yığıncaqda çıxış edib.

### 1972-ci il 26 aprel

Heydər Əliyev Azərbaycan rəssamlarının VII qurultayında nitq söyləyib.

*"...Zaqafqaziya respublikalarının bu yaxınlarda Moskvada nümayiş etdirilmiş təsviri sənət sərgisi rəssamlarımızın ustalığının və ideya-siyasi yetkinliyinin artdığını, yaradılan əsərlərin məzmunlu və bədii cəhətdən dolğun olması üçün onların məsuliyyətinin yüksəldiyini göstərdi.*

*Azərbaycan rəssamlarının xalq ilə, respublikanın əmək kollektivləri ilə canlı əlaqələri daim möhkəmlənir. Sərgilər təşkil edilməsi, müəssisələrdə, kolxoz və sovxozlarda, məktəblərdə müntəzəm olaraq yaradıcılıq hesabatları və görüşlər keçirilməsi buna kömək edir.*

*Azərbaycan təsviri sənətinin inkişafında böyük müvəffəqiyyətlər qazanılmışdır. Lakin bu müvəffəqiyyətlər rəssamları arxayınlaşdırmamalı, onların yüksək məsuliyyət hissini, öz yaradıcılığına tələbkarlıqla yanaşmaq hissini kütləşdirməməlidir. Bizdə dayaz məzmunlu, sönük formalı əsərlər hələ də az deyildir...".*

***

Mədəniyyət və incəsənət sahəsində fəaliyyətə, nailiyyətlərə dövlət tərəfindən qiymət verilirdi.

### 1972-ci il 19 aprel

SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə musiqiçi kadrlar hazırlamaqda xidmətlərinə görə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilib.

### 1972-ci il 19 aprel

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə musiqiçi kadrlar hazırlanmasında, Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətlərinə görə və Azərbaycan Dövlət Konservatoriyasının 50 illiyi münasibətilə burada çalışan bir qrup incəsənət xadiminə fəxri adlar verilib: Xalq artisti – violonçel ifaçısı Sabir Əliyev, pianoçu Kövkəb Səfərəliyeva; Əməkdar incəsənət xadimi – bəstəkarlar Azər Rzayev, Xəyyam Mirzəzadə və b.; Əməkdar artist – arfa ifaçısı Aida Abdullayeva, pianoçu Fərhad Bədəlbəyli və b.

Bundan əlavə, Azərbaycan Dövlət Konservatoriyası ilə 50 illiyi ilə əlaqədar uzun illər burada səmərəli fəaliyyət göstərmiş şəxslər, o cümlədən rektor Soltan Hacıbəyov, Bəstəkarlıq kafedrasının professorları Cövdət Hacıyev, Qara Qarayev, Vokal kafedrasının professoru Şövkət Məmmədova Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif ediliblər.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# “Ana, sənə Şuşadan şəkil göndərəcəyəm...”

44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanlarımız haqqında söz açmağa davam edirik. Bu dəfə kiçik çavuş Qubad Hacıyevi yad edəcəyik.



Qubad Cəmil oğlu Hacıyev 1988-ci il mayın 19-da Tərtər şəhərində anadan olub. Buradakı Əsəd Məmmədov adına 1 nömrəli tam orta məktəbdə təhsil alıb. 2005-ci ildə son zəng sədaları altında, ürəyində min bir arzu ilə məktəb yoldaşlarından, müəllimlərindən ayrılıb.

Məktəbli vaxtından Qubadın idman və musiqiyə böyük marağı var idi. Musiqi məktəbində tar müəllimi olan atasından bir neçə musiqi alətində ifa etməyi öyrənmişdi.

Qubad 2006-2008-ci illərdə hərbi xidmətdə olub. Xidmətini başa vurduqdan sonra bir müddət müxtəlif sahələrdə çalışıb. Ancaq uzun fasilədən sonra hərb sahəsinə qayıtmaq barədə qərar verib. 2015-ci ildə müddətdən artıq hərbi xidmət etmək məqsədilə müvafiq kursa göndərilib və kursu uğurla bitirərək N saylı hərbi hissədə kiçik çavuş rütbəsi ilə manqa komandiri kimi xidmətə başlayıb. Qubad həm 2016-cı ilin Aprel döyüşləri, həm də 2020-ci ilin iyulunda Tovuz istiqamətində gedən döyüşlərdə iştirak edib, erməni təxribatlarının qarşısının alınmasında şücaət göstərib.

44 günlük Vətən müharibəsi başlayanda Qubad artıq təcrübəli döyüşçü idi. Düşməni əzəli yurd yerlərimizdən qovmağın vaxtı çatmışdı. Onun da yer aldığı tabor müharibənin ilk günündə Tərtərin Suqovuşan qəsəbəsi istiqamətində sürətli hücuma keçir. Hərbçilərimizin şücaəti sayəsində düşmənin 30 il ərzində qurub möhkəmləndirdiyi istehkam darmadağın edilir.

Döyüşçü yoldaşlarının dediyinə görə, həmin gün Qubadgilin taboru 11 maneəni keçərək düşmənin canına böyük vahimə salıb. Bu döyüşdə Qubad ayağından yaralansa da, yenə də vuruşmağa davam edib. Ancaq sentyabrın 27-də – haqq savaşımızın ilk günündə şəhidlik məqamına yüksəlib.

Şəhidin atası Cəmil Hacıyev deyir ki, şanlı Ordumuz Qələbə ilə bütün şəhidlərimizin intiqamını aldı: “Biz həm də bununla təsəlli tapırıq. Birinci Qarabağ və Vətən müharibəsi şəhidlərinin indi ruhu şaddır. Çünki işğala son qoyulub. Mən oğlumla fəxr edirəm. Qubadın timsalında bütün şəhidlərimizin ruhu qarşısında baş əyirəm”.

Cəmil müəllim bildirir ki, sentyabrın 27-si günün ikinci yarısı oğlunun şəhid olması xəbərini alıb: “Qubad çox mehriban, vətənpərvər övlad idi. Oğlum şəhid olana qədər bir neçə düşmən hərbçisini məhv edib. Son nəfəsinə qədər döyüşərək şəhidlik zirvəsinə ucalıb”.

Şəhidin anası Tutubəyim Hacıyeva vurğulayır ki, Qubad Vətən müharibəsindən bir gün əvvəl evdə olub: “Evdən çıxanda mənə dedi ki, ana, narahat olma, tez bir zamanda sənə Şuşadan şəkil göndərəcəyəm. Ancaq dediyini edə bilmədi. Oğlum müharibənin ilk günü şəhid oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

Ramal Hüseynli şəhid dayısı ilə fəxr etdiyini söyləyir: “Dayımın xatirəsi hər zaman qəlbimizdə yaşayacaq. Böyüyəndə mən də dayım kimi hərbçi və qəhrəman olacağam”.

Qubad Hacıyev 2020-ci il sentyabrın 28-də Yevlax rayonunun Nəmərli kəndində torpağa tapşırılıb.

Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, Laçının və Suqovuşanın azad olunmasına görə medallarla təltif edilib.

Ruhu şad olsun.

**Nurəddin**

# Üzeyir bəy “Arşın mal alan”da onun obrazını yaratmışdı...

**Məcid Behbudov – 150**

Mədəniyyət paytaxtımız Şuşanın tanınmış simaları arasında ötən əsrin birinci yarısında şöhrəti ölkəmizin hüdudlarını aşan xanəndə Məcid Behbudovun da adı var. Bu il anadan olmasının 150 illiyi tamam olan sənətkar həm də Azərbaycanın musiqi salnaməsinə Rəşid Behbudov kimi görkəmli müğənni bəxş edib.

Məcid Behbudalı oğlu Behbudov 18 aprel 1873-cü ildə Şuşa şəhərində dünyaya göz açıb. Atasını vaxtsız itirdiyi üçün ailənin qayğıları Məcidin üzərinə düşür. Bu səbəbdən də bir sənət sahibi ola bilmir. Sonra bir tacirin yanında satıcılıq edir. Şəhərin küçə və məhəllələrində arşın malı satmağa başlayır. Onun küçələrdən keçərkən “ay arşın malı alan!” – deyib avazla oxuması, səsinin məlahəti sakinlərin diqqətini cəlb edir. O həm də şəhərin din xadimlərinin maraq dairəsinə düşür. Yuxarı Gövhər ağa məscidində minacat verməyə dəvət olunur. Tez-tez musiqi məclislərində və el şənliklərində oxuyur. Sənətin çətin, enişli-yoxuşlu cığırları ilə irəliləyir. Lakin arşınmalçılıq onun gündəlik çörəkağacına çevrildiyindən bu işdən ayrıla bilmir.

Bir gün Məcid yenə arşın malı satmağa gedir. Gəlib səsli-küylü bir imarətin qabağında dayanır. Arşınmalçının səsinə ev sahibəsi qapını açır. Onu içəri dəvət edir. O, həyətə daxil olanda qarşısına gənc, gözəl bir qız çıxır. Qız öz gözəlliyi ilə Məcidin qəlbini əsir alır. Onlar bir-birinə qoşulub Tiflis şəhərinə gedirlər. Burada Məcid arşınmalçılığın daşını atır, başlayır xanəndəlik etməyə. Gənclərin bu hərəkəti uzun müddət şuşalıların söhbət mövzusu olur. Hətta bu hadisə dahi bəstəkar Üzeyir Hacıbəylinin yaddaşında da iz salır. Sonralar məşhur “Arşın mal alan” (1913) operettasının qəhrəmanı Əsgərin timsalında Məcid Behbudovun obrazını yaradır.

Onu da qeyd edək ki, Firuzə adlı bu qız polkovnik Abbasqulu bəy Vəkilovun (1844-1924) övladı idi. O, Tiflis şəhərində Müqəddəs Nina qızlar gimnaziyasını bitirib. Rus, fransız dillərini mükəmməl bilib. Teatrı, musiqini sevib və Avropa ədəbiyyatına yaxından bələd olub...

Gənclər Tiflisin azərbaycanlılar yaşayan məhəlləsində məskunlaşırlar. Məcid burada yaşayan şuşalı musiqiçilərlə tanış olur, onlarla el şənliklərinə gedir. Az vaxt ərzində musiqisevərlər arasında tanınır. Görkəmli aktyor, xanəndə Cəlil bəy Bağdadbəyov xatirələrində yazır ki, Məcid Behbudov 1906-1907-ci illərdə Tiflisdə xanəndəlik edib. Tezliklə Tiflis, İrəvan və Naxçıvanda geniş şöhrət qazanıb... Məcid Behbudov ən yaxın dostu tarzən Məşədi Zeynal Haqverdiyevlə birlikdə bir çox şəhər və kəndlərdə toy məclisləri aparırlar. Müasirlərinin dediklərinə görə, Məcid bir neçə dildə mahnılar oxuya bilirmiş. Ona görə də tez-tez gürcü, ləzgi və digər xalqların toy şənliklərinə dəvət olunub. Ən çox dəvət aldığı məkan isə şəhərin “Dvoryanski klubu” idi.



M.Behbudovun sənət şöhrəti Tiflisin hüdudlarını aşır və yaxın-uzaq şəhərlərə də yayılır. Yazıçı, publisist Vasif Quliyev araşdırmasında yazır: “Məcid Behbudov 1910-cu ildə Riqadakı “Qrammofon” səsyazma cəmiyyətindən dəvət alır. Tarzən Məşədi Cəmil, qarmonçalan Kərbəlayı Lətif, Malıbəyli Həmid kimi musiqiçilərlə Riqa şəhərinə gedir. Bir neçə muğam, xalq mahnısı və təsnifi vala yazdırır. Həmin illərdə bu məqsədlə bəzi Avropa ölkələrindən də dəvətlər alır. Onu bu səfərlərdə rus və fransız dillərini gözəl bilən həyat yoldaşı Firuzə xanım müşayiət edib.

Ustad xanəndənin opera səhnəsində də çıxışları olub. O, 6 mart 1911-ci ildə Bakıda Saşa Oqanezaşvilinin “Nikitin qardaşlarının teatrı”nda tamaşaya qoyulan “Fərhad və Şirin” operasında Xosrov rolunda çıxış edib. 1915-ci ildə Gəncədə Məşədi Cəmil Əmirovun “Seyfəl-mülk” operasının ilk tamaşasında Ələsgər Abdullayev və Bülbüllə tərəf-müqabil olur. Üzeyir Hacıbəylinin opera və operettalarında müntəzəm olaraq müxtəlif rollarda çıxış edir. O dövrün mətbuatında xanəndə-aktyorun səhnə fəaliyyətinə yüksək qiymət verilib...”.

1921-ci ildə Gürcüstanda sovet hakimiyyəti qurulandan sonra Məcid Behbudov musiqi, ömür-gün yoldaşı Firuzə xanım isə maarif sahəsində çalışırlar. Firuzə xanım şəhərin Azərbaycan məktəblərində rus və fransız dili dərslərini tədris edir. Tiflisdə bir müddət Klara Setkin adına Türk Qadın Klubuna rəhbərlik edən Firuzə Vəkilova 1933-cü ildə 44 yaşında dünyasını dəyişir. Bu itkidən sarsılan M.Behbudov İrəvana gedir, burada İncəsənət İşçiləri İttifaqının orkestrində işə başlayır. Amma orada da çox qala bilmir. Firuzənin ana yurdu Qazax rayonuna gəlir və Mədəniyyət evində işə düzəlir.

Bu zaman oğlu Rəşid artıq tanınmış müğənni idi. Onun sənət uğurları atasını fərəhləndirir. Rəşidin 1945-ci ildə “Arşın mal alan” filmində baş rola çəkilməsi və atasının gənclik obrazını yaratması onun qəlbini sanki dağa döndərir. Yenə də erməni bədxahlığı... Bakıda filmin çəkilişləri başa çatmaq üzrə olanda ermənilər Rəşidə teleqram vururlar ki, “Atan rəhmətə gedib, durma gəl!”. Özünü Qazax rayonuna çatdıran Rəşid evlərinin həyətində atasının oturub çay içdiyini görür. Rəşid atasına: “Eyib etməz, ata, qoy bildiklərini etsinlər”, – deyir. O, atası ilə vidalaşıb Bakıya döndükdən qısa müddət sonra (6 sentyabr 1945-ci il) M.Behbudov dünyasını dəyişir və Qazax rayonunda dəfn olunur...

Görkəmli xanəndənin səsi yazılmış onlarca val indi də muzeylərdə və şəxsi kolleksiyalarda, o cümlədən Böyük Britaniyanın Kral Kitabxanasında saxlanılır.

**Savalan Fərəcov**

# Vətən Müharibəsi Qəhrəmanının şəxsi əşyaları Tarix Muzeyinə təqdim olunub

Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant, kəşfiyyatçı Orxan Əkbərovun şəxsi əşyaları Milli Azərbaycan Tarixi Muzeyinə (MATM) təqdim olunub.

Mərasimdə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Muzeyin icraçı direktoru dosent Fərhad Cabbarov şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində MATM-də həyata keçirilən tədbirlərin əhəmiyyətini vurğulayıb. Şəhid Orxan Əkbərovun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlardan danışan F.Cabbarov onun da şəxsi əşyalarının muzeydə qorunub, təbliğ ediləcəyini deyib.

Muzeyin Vətən müharibəsi fondunun müdiri Şəfa Mövsümov, şəhidin əmisi Yusif Əkbərov, döyüşçü yoldaşı polkovnik-leytenant Azər Baxşəliyev, həyat yoldaşı Nuranə Əkbərova qəhrəmanın ömür və döyüş yolundan bəhs ediblər.



Cəsur şəhidə həsr olunmuş videoçarxlar nümayiş olunub, “Xarıbülbül kompozisiyası” və “Zəfər yolu” mahnısı səsləndirilib.

Sonra Orxan Əkbərovun ailə üzvləri onun şəxsi əşyalarını muzeyə veriblər. Bundan əlavə, “Əfsanəvi kəşfiyyatçı Orxan Nadir oğlu Əkbərov” adlı kitab da muzeyə hədiyyə olunub.

# Tanınmış şair Babulla Səlimov vəfat edib

Azərbaycan Yazıçılar Birliyinin üzvü, tanınmış şair, ictimai xadim Babulla Səlimov yanvarın 15-də, ömrünün 78-ci ilində dünyasını dəyişib.



Babulla Səlimov 1945-ci ildə anadan olub. Azərbaycan Neft və Kimya İnstitutunu (indiki ADNSU), Bakı Ali Partiya Məktəbini bitirib. Uzun illər neft sənayesində çalışıb, Əli Bayramlı (indiki Şirvan) Neft Texnikumunun direktoru, şəhər İcraiyyə Komitəsinin, İcra Hakimiyyəti başçısının müavini kimi məsul vəzifələrdə çalışıb.

Ötən əsrin 70-ci illərindən dövri mətbuatda Babulla imzası ilə elmi-publisistik, bədii yazılarla çıxış edib, xalqımızın tarixi ilə bağlı taleyüklü problemlərə toxunub. 20 Yanvar şəhidlərinə həsr olunmuş “Xiyabandan gələn səslər” şeirlər kitabı 1991-ci ildə, “Yaddaşın abidəsi” fəlsəfi-publisistik kitabı 2000-ci ildə, “Sonam” xatirat kitabı 2013-cü ildə nəşr edilib.

B.Səlimov Azərbaycan Yazıçılar Birliyinin katibi, şair və tərcüməçi Səlim Babullaoğlunun atası idi.

“Mədəniyyət” qəzetinin kollektivi Səlim Babullaoğluna atasının vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

# “Aşıq deyişmələri” toplusu haqqında düşüncələr

Milli-mənəvi düşüncəmizin ana qaynaqlarından olan ozan-aşıq sənəti öz tarixi-mədəni gələnəyi ilə arxaik yaddaşda olanları qoruyub gələcəyə daşımağı bir məram olaraq qarşısına qoymuşdur. Zəngin dastan söyləyiciliyi, saz havalarının çeşidliliyi, rəngarəng biçimli poetik örnəkləri ecazkarlığı, məclis ədəb-ərkanı və kutsal sənət ənənəsi, toplumun ruhani dünyasının ifadəyə köklənmə bunun parlaq göstəricisidir. Aşıq deyişmələrinin isə bu möhtəşəm zənginlikdə poetik status və funksiyası bir başqa olub, sənətin ümumi ahənginə əlavə ovqat qatması ilə daha çox seçiyyələnir. Bu zənginliyin kitab şəklində geniş ictimaiyyətə təqdim olunması folklorşünaslığın ən ümdə mənəvi borcu kimi diqqət önünə gəlir.

Son dövrlərdə Azərbaycan Aşıqlar Birliyi bu istiqamətdə diqqətəlayiq işlərə imza atmış, bir-birindən maraqlı nəşr layihələri həyata keçirmişdir. Ötən il birlik tərəfindən “Aşıq deyişmələri” toplusu işıq üzü görmüşdür.

Professorlar Məhərrəm Qasımlı və Mahmud Allahmanlı nəşrə “Aşıq deyişmələri: səciyyəsi, mərhələləri və poetik çeşidləri” adlı giriş sözü yazmışlar. Aşıq sənətində deyişmənin yeri, funksional çəkisi, məramı və nələri ehtiva etməsi, mərhələləri haqqında dolğun təsəvvür formalaşdıran bu məqalə-yazı problemə türk xalqları kontekstində yanaşma xüsusiyyəti ilə daha mühüm əhəmiyyət kəsb edir.

Ön sözdə deyilir: “Türk etnocoğrafiyasının ayrı-ayrı kəsimlərində “aytıs”, “aytışpa”, “atışma” şəklində özünü göstərən bu sənət hadisəsi Azərbaycan aşıq ədəbiyyatında “deyişmə” adı ilə tanınmaqdadır. Əslində, “aytıs”, “aytışpa” və “atışma” adları da öz linqvopoetik səciyyəsinə görə elə “deyişmə” anlamının tarixi məzmununu ifadə edir. Belə ki, “aytıs”, “aytışpa” və “atışma” kəlmələri qədim türklərdəki “aytmaq” (demək, söyləmək) kökünə bağlıdır: “aytıs-deyiş”, “aytışpa-deyişmək”, “atışma”-deyişərək, bir-birinə meydan oxuyaraq söz savaşına çıxmaq” məzmunu daşıyır. Bu səbəbdən də qazax jırav və akınının “aytısı”, qırğız jırsı və yomokçusunun “aytışpası”, eləcə də türkmən başxılarının və Anadolu aşıqlarının “atışması” mahiyyət etibarilə Azərbaycan “aşıq deyişməsi” ilə eyni sənət kodları üzərində qurulmuşdur. Uzaq tarixlərdə olduğu kimi, bu günün özündə də qazax, qırğız, türkmən, özbək, eləcə də Anadolu və Azərbaycan folklor areallarında müşahidə olunan aytışpa-atışma-deyişmə mərasimlərindəki yaxınlıq və doğmalıq elə ilk baxışdan aydınca görünməkdədir”.

Qeyd edək ki, bu kitaba qədər isə nəşr olunan “Aşıq gözəlləmələri”, “Aşıq təcnisləri”, “Aşıq müxəmməs və divaniləri”, “Ustad nəfəsli saz-söz ərməğanı”, “Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər”, “Ozan-aşıq ensiklopediyası” (iki cilddə) və s. bu istiqamətdə görülən işlərin miqyasını ifadə edir. Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının rəhbərliyi altında həyata keçirilən bu nəşr layihələri saz-söz ustadlarının zəngin mənəvi irsinə sayğının nəticəsi olub, mədəni-mənəvi yaddaşımızın daha geniş ictimaiyyətə çatdırılması məqsədi daşıyır.



“Aşıq deyişmələri”ndə nümunələr “Dastanlarda və dastanrəvayətlərdə yer alan hərbəzorba və sorğu-sual yüklü aşıq deyişmələri”, “Dastanlardakı digər deyişmə çeşidləri (duet deyişmələr)”, “Mifoloji səciyyəli deyişmələr”, “Ustad aşıqların dastandankənar deyişmələri”, “Aşıqlarla şairlərin deyişmələri”, “Məcazi-simvolik məzmunlu deyişmələr”, “Təbiət varlıqları ilə aşıqların deyişmələri”, “Aşıq şeir şəkillərinin bir-biri ilə deyişməsi”, “Bayatı üstündə qurulan deyişmələr”, “Ailə-məişət səpkili deyişmələr”, “Ustad aşıqların qurduqları qıfılbəndlərə çox sonralar verilən açıqlama-cavablar” başlıqları altında verilmişdir.

M.Qasımlının, M.Allahmanlı və dosent Altay Məmmədlinin birgə hazırladıqları topluda ustad sənətkarların deyişmə timsalında hansı prinsiplərə kökləndiyini, məram və məqsədində olanların nələrə bağlandığını aydınlaşdırmaq və dəqiqləşdirmək baxımından əhəmiyyət kəsb edir. “Yetim Aydın”, “Qurbani”, “Abbas və Gülgəz”, “Şah İsmayıl”, “Xəstə Qasım və Mələksima”, “Valeh və Zərnigar”, “Novruz və Qəndab”, “Aşıq Alının Osmanlı səfəri”, “Aşıq Hüseyn və Reyhan xanım”, “Dollu Mustafa və Maral xanım”, “Məhəmməd və Güləndam”, “Leyli və Məcnun”, “Dilsuz və Xəzangül”, “Şəmşir və Sənubər”, “Bəhmən və Humay”, “Avdı və Mehriban”, “Qaratel və Aşıq Cəlal” və s. dastanlarda yer alması deyişmə nümunələri sənət ənənəsinin mükəmməlliyini və özünü ifadə kodu olaraq təsəvvür formalaşdırma kriteriyasını açıqlayır. Müxtəlif zaman kəsiklərində ustadların zəkasının məhsulu olaraq meydana gəlmiş bu şedevrlər çoxçalarlı və əhatəli informasiya, bilgi qatı ilə mifoloji dünyagörüşü, dini-fəlsəfi, tarixi-mədəni axarı əhatələmək imkanları ilə də əvəzsizlik sərgiləyir.

Ustad sənətkarların həyatı, yaradıcılığı, səfər təəssüratı, sənət yükü, söz//musiqi//söyləyici səviyyəsində geniş bir təfsilatı ortaya qoyan bu nümunələrdə Qurbaninin Dədə Yediyarla Gəncədə, Xəstə Qasımın Ləzgi Əhmədlə Dərbənddə, Abdalgülablı Valehin Zərnigar xanımla Dərbənddə, Aşıq Alının Aşıq Yığvalla Rumda və s. qarşılaşması sənət ənənəsinin zənginliyini gözlər önünə gətirir. Çağırış-məktubdan hərbə-zorbaya, bağlama-qıfılbəndə qədər geniş bir fakturanı özündə sərgiləyən deyişmə ustadların sənət yükünü, ustaddan kamil dərs almanı, havacatlara bələdliyini, səs və ifa imkanlarını, bədahətən söz demə bacarığını və s. bir bütöv olaraq əhatələyir. Bütün bunlar isə sənətin uca tutulmasına yönəlik bir məsələ kimi Orta əsrlərdən günümüzə qədər aşıqlığın mizan-ölçüsü səviyyəsində ciddi təsəvvür formalaşdırır.

“Ustad aşıqların dastandan kənar deyişmələri” başlığı altında Xəstə Hasanla İrfani, Qul Qarani, Aşıq Sefilinin, Aşıq Valehlə Aşıq Süleymanın, Aşıq Qənbərin, Aşıq Alı ilə Aşıq Ələsgərin, Aşıq Hüseyn Şəmkirli ilə Aşıq Ələsgərin və s. deyişmələri, müəmmaları, qıfılbəndləri diqqətə çatdırılır.

Topluda əhəmiyyət kəsb edən məsələlərdən biri bu ənənənin aşıq və şairlərin qarşılaşması timsalında olanlara həssaslıq göstərilməsidir. Bunların bir qismi, sözün müstəqim mənasında, iki aşığın sənət meydanında deyişməsi səciyyəsi daşıyırsa, digər bir qismi, müxtəlif problemlər ətrafında fikir bölüşməsi, söhbətləşməsi timsalında əhəmiyyət kəsb edir. Məsələn, Bəyçobanla Şəmkirli Hüseynin, Xəyyat Mirzə ilə Molla Cumanın, Hüseyn Bozalqanlı ilə Xəyyat Mirzənin, Şair Nəbi ilə Göyçəli Pirməmmədin, Səməd Vurğunla Aşıq Şəmşirin, Osman Sarıvəlli ilə Hüseyn Bozalqanlının, Aşıq Əsədin, Aşıq Mirzənin və s. deyişmələri sənət ənənəsinin dönməzliyini, etnokulturoloji sistemin mükəmməlliyini əhatələyir. Kitabda toplanmış deyişmə nümunələri mövzu və məzmunca çeşidliliyi ilə də diqqət çəkir. “Nəfs və mərifətin deyişməsi”, “Ağılla eşqin deyişməsi”, “Qafiyə ilə təcnisin deyişməsi”, “Qız ilə gəlinin deyişməsi”, “Molla Cuma ilə dabbağın deyişməsi” və s. kimi örnəklər yaradıcılıq axtarışlarında deyişmənin məzmun və mövzu genişlənmələrini göstərmək baxımından da dolğun təsəvvür yaradır.

“Ustad aşıqların qurduqları qıfılbəndlərə çox sonralar verilən açıqlama-cavablar” bölməsində isə zamanında açılmamış bağlama-qıfılbəndlərə verilən cavablar yer alır. Məsələn, “Şair Nəbi Borçalının Aşıq Ələsgərin qıfılbəndinə cavabı”, “Qaraçöplü Aşıq Musanın Qurbaninin “Dördü nə?” rədifli bağlamasına cavabı”, Xəstə Qasımın “Var” rədifli bağlamasının Qaraçöplü Aşıq Musa tərəfindən açması”, “Qurbaninin “Dördü nə?” bağlamasını Urfan Əlinin (Əli Quliyevin) açması”, “Aşıq Ələsgərin “Yeddidi” bağlamasını U.Əlinin açması” və s. sənət ənənəsinin davamlılığını və yaradıcılıq axtarışlarının dinamik mənzərəsini ortaya qoyur.

**Şəbnəm Haqverdiyeva**
**AMEA Folklor İnstitutunun əməkdaşı**

# "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq

## Dastanın Lütfi Zadə nəzəriyyəsi ilə bağlılığından bəhs edən tədqiqat

Xalq yazıçısı, akademik Kamal Abdulla və AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevin müəllifləri olduğu "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq" kitabı işıq üzü görüb.




Yanvarın 13-də Milli Kitabxanada kitabın təqdimatı keçirildi. Tədbirdə Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" layihəsi çərçivəsində nəşr etdiyi "Lütfi Zadə. Biblioqrafiya" da təqdim olundu.

Tədbiri Milli Kitabxananın direktoru professor Kərim Tahirov açaraq qeyd etdi ki, Azərbaycanı dünyaya tanıdan bir alimin, Lütfi Zadənin işığına toplaşmışıq. Təqdim olunan kitab və Lütfi Zadənin ideyası, həqiqətən iki cəbhənin – həm humanitar, həm də dəqiq elmlər sahəsinin adamlarını bir yerə yığıb. Dünya durduqca Lütfi Zadənin ideyaları da yaşayacaq və genişlənəcək: "Nə yaxşı ki, Azərbaycan xalqının belə oğulları var. Onun ideyalarını ölkəmizdə davam etdirən alimlər var".

Tədbirin moderatoru, AMEA-nın müxbir üzvü Qorxmaz İmanov çıxış edərək qeyri-səlis məntiq nəzəriyyəsinin yaranma tarixindən danışdı. Bildirdi ki, bu nəzəriyyə ötən əsrin 60-cı illərində ortaya çıxıb. Ondan ilk dəfə texnika sahəsində çalışanlar istifadə edib. Bu gün elmin müxtəlif sahələrində bu nəzəriyyə uğurla tətbiq edilir.

Q.İmanov Rafiq Əliyevin Lütfi Zadə nəzəriyyəsinə gətirdiyi yeni fikirlərdən, əldə etdiyi mühüm nəticələrdən də danışdı. O, Kamal Abdullanın qorqudşünas alim kimi tədqiqatlarından, qeyri-səlis məntiqin qorqudşünaslığa tətbiqindən də bəhs etdi.

AMEA-nın Folklor İnstitutunun baş direktoru akademik Muxtar İmanov bildirdi ki, kitabın aparıcı xəttini türk və yunan mifləri ilə müqayisə təşkil edir. Bu kitab həm qədim miflərin, həm də müasir ədəbiyyatın strukturunu öyrənmək üçün böyük əhəmiyyətə malikdir.

Xalq şairi Ramiz Rövşən dedi ki, kitabda "ya yaxşı, ya pis" anlayışı "nə yaxşıdır, nə pis" anlayışı ilə əvəz olunur. Qeyri-səlis məntiq nəzəriyyəsi, bir növ, ironiyaya yol açır. Diqqət edilsə, atalar sözlərimizdə də xeyli ironiya var.

Kitabın müəlliflərindən biri AMEA-nın müxbir üzvü Rafiq Əliyev çıxışında təqdimata görə Milli Kitabxanaya təşəkkür etdi.




"Lütfi Zadə. Biblioqrafiya" kitabının əhəmiyyətindən bəhs edən R.Əliyev "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq" kitabının ideya müəllifinin Kamal Abdulla olduğunu və hər iki nəşrin Lütfi Zadə ideyalarının təbliğində böyük rol oynayacağını dilə gətirdi.

Digər müəllif, Azərbaycan Dillər Universitetinin rektoru Xalq yazıçısı, akademik Kamal Abdulla kitabın ərsəyə gəlməsindən bəhs etdi. Dedi ki, qeyri-səlis məntiq nəzəriyyəsi "Dədə Qorqud" dastanının öyrənilməsinə yeni ruh gətirib. Kitab ingilis və türk dillərinə tərcümə edilib.

Milli Məclisin deputatları Fazil Mustafa, Vahid Əhmədov, Etibar Əliyev, AMEA-nın birinci vitse-prezidenti akademik Arif Həşimov, AMEA İqtisadiyyat İnstitutunun direktoru professor Nazim İmanov, Mətbuat Şurasının sədri Rəşad Məcid və başqaları çıxış edərək qeyri-səlis məntiq nəzəriyyəsindən, bu istiqamətdə Lütfi Zadənin gördüyü əvəzsiz işlərdən söz açdılar, nəşrin əhəmiyyəti yüksək qiymətləndirildi. Qeyd olundu ki, kitabda qeyri-səlis məntiq nəzəriyyəsində söylənilən dörd sütun (ümumi məntiq, qeyri-səlis çoxluqlar, epistemik (epistemoloji) sütun və münasibətlər sütunu) haqqında söz açılır.

Çıxışlarda "Lütfi Zadə. Biblioqrafiya" haqqında da bəhs olundu. Bildirildi ki, nəşrdə görkəmli alimin həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri ayrıca bölmədə verilib. Biblioqrafiyada elm xadiminin kitabları, dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri, alimin həyat və yaradıcılığını əks etdirən zəngin ədəbiyyat öz əksini tapıb. Materiallar Azərbaycan, rus, ingilis və başqa dillər üzrə verilib. 2500-dən artıq mənbəni əhatə edən biblioqrafiyanın elektron versiyası Milli Kitabxananın saytında yerləşdirilib.

**Savalan Fərəcov**

# "Vokal müəllimi həm də bir həkimdir..."

Dünya musiqi mədəniyyətində azərbaycanlı musiqiçilərin – bəstəkarların, ifaçıların məxsusi yeri, böyük xidmətləri var. Opera sənəti tarixində də qadın ifaçılarımızın rolu danılmazdır. Bu sahədə görkəmli sənətkarların yolunu davam etdirənlərdən biri də metso-soprano səs tembrinə malik Əməkdar artist, Prezident mükafatçısı Səbinə Əsədovadır. O, həmçinin Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Solo oxuma və opera hazırlığı kafedrasının baş müəllimidir. Onunla qısa müsahibəni təqdim edirik.

*– Səbinə xanım, səhv etmirəmsə, ailənizdə sizdən başqa da musiqiçilər olub?*

– Bəli, babam Eynulla Əsədov tanınmış xanəndə olub. Atam Çingiz Əsədov isə bariton səsə malik vokal ifaçısıdır.

*– Bu sənətə yiyələnərkən bir idealınız vardımı?*

– Təbii ki. Məsələn, Yelena Obraztsovanı, Dalora Zajeki bu gün də çox dinləyirəm. Onlar heyrətamiz metso-soprano səs tembrinə malik ifaçılardır.

*– Sizə ən çox uğur qazandıran, məşhurluq gətirən hansı opera tamaşası olub?*

– Xarici ölkələrdə bir sıra maraqlı, yaddaqalan çıxışlarım olub. Lakin opera tamaşası olaraq İtaliyada C.Verdinin "Riqoletto" operasından Maddalena və "Traviata" operasından Flora obrazlarının mənə daha çox uğur gətirdiyini deyə bilərəm.

*– Opera səhnəsində canlandırdığınız obrazlardan hansını özünüzə ruhən daha yaxın hiss edirsiniz?*

– Xarakter olaraq mən dramatik obrazları çox sevirəm. Misal üçün, C.Verdinin "Trubadur" operasından Azuçena, "Aida" operasından Amneris, C.Puççininin "Plaş" ("İl Tabarro") operasından Fruqola obrazlarını xarakter baxımından özümə daha yaxın hiss edirəm. Komik obrazlar da ifa etmişəm. Lakin yaş artdıqca insanda daha çox ciddi, dramatik obrazları canlandırmaq istəyi yaranır.



*– Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında vokal sənətini tədris edirsiniz. Sizcə, hansı daha çətindir: bu sənəti tələbələrə öyrətmək, yoxsa ifa etmək?*

– Deyərdim ki, hər ikisi. Həm səhnədə ifa etməyin, həm də vokal sənətini tədris etməyin öz çətinlikləri var. Vokal ifaçı özünü nəzarətdə saxlamalı, çoxlu məşq etməli, daima səsi üzərində işləməlidir. Yaşın az olsa da, çox olsa da, mütəmadi çalışmalısan. Bütün bu gərgin məşqlərdən sonra səhnədə uğurla çıxış etmək, təbii ki, insanın özünə böyük zövq verir. Öyrətməyə gəldikdə isə, tədris etməyi sevirəm. Hesab edirəm ki, vokal müəllimi özü bir həkimdir. Biz vokal imkanları baxımından çətinliyi olan tələbəyə kömək etməliyik. Müxtəlif problemləri olan tələbələrlə işləmək, onları doğru istiqamətə yönəltmək yorucu proses olsa da, öyrətməkdən, tələbə ilə çətinliklər üzərində işləməkdən usanmıram. Çünki tələbənin səhnədə parlaq çıxışı, ilk növbədə, müəllimin uğurudur.

*– Hazırda klassik musiqinin təbliği, gənclərin ona münasibəti sizi qane edirmi?*

– Düşünürəm ki, indi gənclərə maraqlı olacaq yeni layihələr hazırlanmalı, zəngin proqrama malik konsertlər təşkil edilməlidir. Təkcə əsər oxuyub, səhnədə ifa etməklə yaxşı təcrübə əldə etmək olmaz. Eyni zamanda vəhdət şəklində dirijorla, rejissorla işləyib, orkestrlə ifa edərək böyük təcrübə əldə edə və imkanlarını genişləndirə bilərsən. Həmçinin ayrı-ayrı peşəkarların ustad dərslərini təşkil etmək lazımdır. Bu, tələbələr üçün çox əhəmiyyətlidir.

*– Ötən ilin sonlarında Astanada "İpək Yolu" festivalında iştirak etdiniz. Bu səfər haqqında təəssüratınızı bizimlə bölüşərdiniz.*

– "Astana Opera"da keçirilən IV Beynəlxalq "İpək Yolu" Festivalına 13 ölkədən sənətçilər qatılmışdı. Bir aya yaxın davam edən festivalda "Turandot", "Yevgeni Onegin" operaları səhnəyə qoyulmuşdu. Mən isə qala-konsertə dəvət olunmuşdum, çox maraqlı konsert keçirildi. Təəssüratım çox gözəldir. Əzəmətli teatr, möhtəşəm orkestr, istedadlı dirijor və kollektiv, maraqlı rejissor işi, müasir səhnə quruluşu – hər şey mükəmməl idi. Bir sözlə, belə musiqiçilərlə bir səhnəni bölüşmək çox xoş idi.

**Ofeliya İsgəndərova**
**musiqişünas**

## Xatirə təqvimi 18–20 yanvar

### Azərbaycan

**18 yanvar 1925** – Tarixçi alim, pedaqoq Qasım Səfər oğlu Qasımov (1925 – 2.11.1991) anadan olub.

**18 yanvar 1927** – Xalq artisti, dirijor Kamal Cahanbaxış oğlu Abdullayev (1927 – 5.12.1997) anadan olub. Akademik Opera və Balet Teatrında çalışıb.

**18 yanvar 1928** – Musiqişünas, sənətşünaslıq doktoru, Əməkdar elm xadimi Ağa Əhməd İsa oğlu İsazadə (1928-2007) anadan olub.

**18 yanvar 1941** – Xalq artisti, Dövlət mükafatı laureatı, kinorejissor, ssenarist Eldar Tofiq oğlu Quliyev (1941 – 16.4.2021) Bakıda doğulub. "Bir cənub şəhərində", "Sevinc buxtası", "Babək", "Gümüşgöl əfsanəsi" və s. filmlərə quruluş verib. Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

**18 yanvar 1983** – Yazıçı-dramaturq, publisist Seyfəddin Dağlı (Seyfəddin Əliağa oğlu Abbasov; 27.8.1921 – 1983) vəfat edib. "Adı sənin, dadı mənim", "Aydınlığa doğru", "Mənziliniz mübarək" və s. pyeslərin müəllifidir.

**18 yanvar 2002** – Görkəmli bəstəkar, pedaqoq, Xalq artisti, professor Cövdət İsmayıl oğlu Hacıyev (18.6.1917 – 2002) vəfat edib. Azərbaycanda simfonik musiqinin yaradıcılarından biridir, Q.Qarayevlə birlikdə yazdığı "Vətən" operasına görə SSRİ Dövlət mükafatına layiq görülüb.

**19 yanvar 1873** – Azərbaycanın ilk maarifçi qadınlarından Həmidə xanım Əhmədbəy qızı Məmmədquluzadə-Cavanşir (1873 – 6.2.1955) Ağcabədi rayonunun Kəhrizli kəndində anadan olub. Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin yaradıcılarındandır. Ömür-gün yoldaşı C.Məmmədquluzadənin bioqrafiyasını yazıb, Azərbaycan yazıçılarının əsərlərini ruscaya tərcümə edib.

**19 yanvar 1923** – Əməkdar incəsənət xadimi, müasir Azərbaycan təsviri sənətinin banilərindən Cavad Mirhaşım oğlu Mircavadov (1923 – 24.6.1992) Bakıda anadan olub. Əsərlərində şifahi xalq ədəbiyyatı personajlarına geniş yer verib. Əsərləri: "Şərq miniatürü mövzusunda improvizasiya" silsiləsi, "Toy", "Şaman-qadın" və s.

**19 yanvar 1931** – Xalq artisti Aydın Ağa oğlu Şahsuvarov (1931-1986) Naxçıvanda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**19 yanvar 1980** – Əməkdar artist Məmməd Abbasqulu oğlu Cəfərov (1912-1980) vəfat edib. Gəncə Dram Teatrında aktyor, Gəncə Dövlət Filarmoniyasında direktor işləyib.

**20 yanvar 1882** – Şair Bədri Seyidzadə (Bədrəddin Mir Kazım oğlu Seyidzadə; 1882-1945) Bakının Keşlə kəndində doğulub.

**20 yanvar 1924** – Əməkdar incəsənət xadimi Yusif Məmməd oğlu Bağırov (1924 – 28.11.1996) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrında quruluşçu rejissor və baş rejissor işləyib, "Azərbaycanfilm" kinostudiyasında filmlərin ikinci rejissoru olub.

**20 yanvar 1946** – Əməkdar incəsənət xadimi, bəstəkar Tahir İsmayıl oğlu Əkbər (1946 – 2.3.2018) anadan olub. Simfonik və kamera əsərlərinin, populyar mahnıların ("Dərdin alım", "Heç küsməyin yeridirmi?") müəllifidir.

**20 yanvar 1977** – Şair, publisist, Əməkdar mədəniyyət işçisi Zeynal Əliabbas oğlu Cabbarzadə (31.12.1920 –1977) vəfat edib.

**20 yanvar 2010** – Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində 20 Yanvar abidə kompleksinin açılışı olub. Abidə kompleksinin memarı Ədalət Məmmədov, heykəltəraşları Cavanşir Dadaşov və Azad Əliyevdir.

### Dünya

**18 yanvar 1689** – Fransız filosofu Şarl Lui de Monteskye (Charles-Louis de Secondat, Baron de La Brede et de Montesquieu; 1689-1755) anadan olub.

**18 yanvar 1882** – İngilis yazıçısı, uşaqlar üçün məşhur "Vinni Pux" əsərinin müəllifi Alan Aleksandr Miln (Alan Alexander Milne; 1882-1956) anadan olub.

**19 yanvar 1809** – Amerika yazıçısı və şairi Edqar Po (Edgar Allan Poe; 1809-1849) anadan olub. Ədəbiyyatda detektiv-fantastik janrın yaradıcısı sayılır. Bir çox hekayə və novellaları ("Morq küçəsində qətl", "Mari Rojenin sirri", "Qara pişik", "Qarğa" və s.) əsasında filmlər çəkilib.

**19 yanvar 1839** – Fransız postimpressionist rəssamı Pol Sezan (Paul Cezanne; 1839-1906) anadan olub.

**19 yanvar 1865** – Rus rəssamı, portret janrının ustası Valentin Serov (1865-1911) anadan olub.

**20 yanvar 1804** – Fransız yazıçısı Ejen Syu (Marie Joseph Eugene Sue; 1804-1857) anadan olub. "Parisin sirləri", "Matilda", "Məhəbbət uşaqları" və s. romanların müəllifidir.

**20 yanvar 1920** – İtalyan kinorejissoru Federiko Fellini (Federico Fellini; 1920 – 31.10.1993) anadan olub. Beş dəfə "Oskar" mükafatına (o cümlədən fəxri "Oskar") layiq görülüb. Filmləri: "Yol", "Kabiriya gecələri", "Şirin həyat", "Səkkiz yarım", "Amarkord" və s.

**Hazırladı: V.Orxan**

# Natəvan haqqında "Wikipedia"da özbək dilində səhifə yaradılıb

Azərbaycanın Şuşa şəhərinin 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi münasibətilə Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə görkəmli şair, xeyriyyəçi Xurşidbanu Natəvan (1832-1897) haqqında "Wikipedia"da özbək dilində xüsusi səhifə istifadəyə verilib.




AMM-in "Wikipedia" heyəti tərəfindən yaradılmış səhifə ümumilikdə 12 bölmədən ibarətdir və hər bir bölmədə müvafiq olaraq şairənin həyatı, Azərbaycan ədəbiyyatına verdiyi töhfələr, eləcə də ailə şəcərəsi, əsərləri, ictimai fəaliyyəti və s. haqqında məlumat verilib. Səhifənin "Meros" (İrsi) bölməsində şairənin adına küçə, klub, kitabxana, məktəb yaradılması, Xan qızının əlyazmaları, şəxsi geyim və əşyaları nadir eksponat kimi arxiv və muzeylərimizdə saxlanılması əks olunub. Bildirilir ki, Natəvanın Bakıda heykəli, Şuşada büstü, Ağdamda qəbirüstü abidəsi, Heydər Əliyev Fondunun dəstəyi ilə Belçika Krallığının Vaterlo şəhərində abidəsi qoyulub.

Səhifədə 2022-ci ildə Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı da diqqətə çatdırılır. Mənbədə Şuşada həmin dövrün ədəbi mühiti və Xurşidbanu Natəvanın burada yaratdığı "Məclisi-üns" ədəbi məclisi barədə geniş məlumat verilir.

Bölmədə Xurşidbanu Natəvanın şeirləri, haqqında çap olunmuş kitabların siyahısı da öz əksini tapıb. Həmçinin məlumat verilir ki, AMM tərəfindən Xurşidbanu Natəvanın şeirləri özbək dilinə tərcümə olunaraq nəşr edilib.

Xurşidbanu Natəvan haqqında özbək dilində məlumatlarla https://uz.wikipedia.org/wiki/Xurshidbonu_Notavon linki vasitəsilə tanış olmaq mümkündür.

# Kino-Foto Sənədləri Arxivinə 5 minə yaxın foto təhvil verilib

Azərbaycan Dövlət İnformasiya Agentliyi – AZƏRTAC tərəfindən 4933 saxlama vahidi fotosənəd daimi mühafizə məqsədilə Dövlət Kino-Foto Sənədləri Arxivinə təhvil verilib.

Fotosənədlər Prezident İlham Əliyevin 2021-ci il üzrə fəaliyyətini əks etdirir. Sözügedən sənədlər dövlət başçısının işğaldan azad olunmuş ərazilərə səfərlərini, həmin ərazilərdə yenidənqurma, bərpa işləri, o cümlədən nəqliyyat, enerji, aqrar, hərbi infrastrukturun qurulmasını özündə əks etdirir.

Bundan əlavə, Avropa İttifaqının təşkilatçılığı ilə Azərbaycan və Ermənistan liderlərinin görüşləri, Qlobal Bakı Forumunda iştirak, xarici KİV nümayəndələrinə verilmiş müsahibələr və digər fəaliyyət sahələrinə aid olan fotosənədlər də təqdim olunan nümunələr arasında yer alır.

Hazırda Dövlət Kino-Foto Sənədləri Arxivində təqdim olunan materialların qanunvericiliyin tələblərinə uyğun olaraq qeydiyyatı və arxiv fonduna qəbulu prosesi aparılır.

# Səməd Vurğunun şeirləri alman portalında

Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində Xalq şairi Səməd Vurğunun alman dilinə tərcümə edilmiş "Mən tələsmirəm" və "Əyilmə!" şeirləri Almaniyanın populyar "Spruechetante" ("Natiq") ədəbiyyat portalında yayımlanıb.




Dövlət Tərcümə Mərkəzindən bildirilib ki, şairin yaradıcılığı haqqında məlumatla təqdim olunan şeirləri alman dilinə mərkəzin alman dili mütəxəssisi Məryəm Səmədova tərcümə edib. Tərcümə mətnlərinin bədii redaktoru alman ədəbiyyatşünas alimi Kerstin Krapsdır.

Xatırladaq ki, geniş oxucu kütləsi tərəfindən izlənilən "Spruechetante" ədəbiyyat portalı mütəmadi olaraq səhifələrində Eduard Fridrix Mörike, Fridrix Şiller, Volfqanq Höte, Teodor Fönten, Çarlz Dikkens, Tomas Braun kimi məşhur yazıçı və şairlərin yaradıcılığını işıqlandırır.

# “İpək Yolunun musiqisi” Nərgiz Əliyarovanın ifasında

## Azərbaycanlı pianoçu Vaşinqtonda konsert proqramı ilə çıxış edib

Tanınmış azərbaycanlı pianoçu, Əməkdar artist, Vaşinqtonda fəaliyyət göstərən Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin təsisçisi Nərgiz Əliyarova Con Kennedi adına İfaçılıq İncəsənəti Memorial Mərkəzində (John F. Kennedy Memorial Center for the Performing Arts – Kennedy Center) “İpək Yolunun musiqisi” adlı solo konsert proqramını təqdim edib.

Mərkəzin “Millenium” səhnəsində çıxış edən ifaçının proqramında tarixi İpək Yolunun keçdiyi üç ölkənin – Azərbaycan, Türkiyə və İran bəstəkarlarının əsərləri yer alıb.

Konsertdən öncə Nərgiz Əliyarova Azərbaycanın zəngin musiqisindən, dünya incəsənətinə bəxş etdiyi töhfələrdən söhbət açıb.

Gecədə pianoçu Azərbaycanın klassik və müasir bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Firəngiz Əlizadə və Faiq Sücəddinovun, Lalə Cəfərovanın Üzeyir Hacıbəylinin əsərləri mövzusunda işləmələrini ifa edib.

Proqramda həmçinin Türkiyə bəstəkarları Ülvi Camal Erkin və Fazil Say, eləcə də Cənubi Azərbaycandan bəstəkar Ariya Torkanborinin musiqiləri səslənib.

Konsert yerli və müxtəlif ölkələrdən olan sənətsevərlər, ABŞ-da yaşayan azərbaycanlılar tərəfindən alqışlarla qarşılanıb.




Xatırladaq ki, ötən ilin noyabrında Nyu-Yorkdakı “Carnegie Hall”da Nərgiz Əliyarovanın rəhbərlik etdiyi Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin təşəbbüsü ilə Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş “Dostluq körpüləri” adlı konsert proqramı gerçəkləşmişdi. Həmin proqramda Fikrət Əmirovun musiqiləri ilə bərabər, türk və yəhudi bəstəkarların əsərləri də səslənmişdi.

# Berlin Operasının musiqi direktoru vəzifəsini tərk edir



Otuz il Berlin Dövlət Operasına rəhbərlik etmiş israilli dirijor və pianoçu Daniel Barenboim yanvarın 31-də vəzifəsini tərk edəcək. Barenboim istefası barədə açıqlamasında belə deyib: ”Təəssüf ki, son bir ildə səhhətim xeyli pisləşib. Baş musiqi direktorundan tələb olunan səmərəliliyi artıq təmin edə bilmirəm”.

2022-ci ilin noyabrında o, səhhətindəki problemlər səbəbindən 80 illik yubiley konsertini ləğv etməli olmuşdu.

Daniel Barenboim 1992-ci ildən Berlin Dövlət Operasının baş musiqi direktorudur. 2011-ci ildən isə həm də Milan La Skala Teatrının baş dirijoru və musiqi direktoru təyin edilib. Bundan əlavə, Barenboim amerikalı ədəbiyyatşünas Edvard Səidlə birlikdə Yaxın Şərq münaqişəsinin sülh yolu ilə həllinə töhfə vermək məqsədilə gənc ərəb və yəhudi musiqiçilərdən ibarət “Qərb-Şərq divanı” orkestrini yaradıb.

**Lalə**

# “Balıqlara xütbə” Çinə gedib

Azərbaycanlı rejissor Hilal Baydarovun ”Balıqlara xütbə” (”Sermon to the Fish”) filmi növbəti beynəlxalq festivalda iştirak edir.




Ekran əsəri Çində, 6-cı Pingyao Beynəlxalq Film Festivalının (Pingyao International Film Festival – PYIFF) proqramında yer alıb. Festival 14-17 yanvar tarixlərində Çinin şimalındakı Şansi əyalətində keçirilir.

Qeyd edək ki, 2022-ci ildə istehsal olunan “Balıqlara xütbə” bir neçə festivalda uğurla nümayiş olunub. Ekran əsəri ötən ilin avqustunda 75-ci Lokarno Film Festivalında (İsveçrə) jürinin xüsusi mükafatına, noyabr ayında isə Almaniyada – 32-ci Cottbus Film Festivalında (FFC) münsiflər heyətinin fəxri mükafatına layiq görülüb.



Azərbaycan, Türkiyə, Meksika və İsveçrə kinematoqrafçılarının iştirakı ilə ərsəyə gələn filmin ssenari müəllifləri Hilal Baydarov və Aysu Akcandır. Film müharibələrin ağrıları içində itmiş, unudulmuş ruhlar haqqında fəlsəfi nağıldır.

# Bir dövr italyan kinosunun siması idi...

## Cina Lollobricida 96 yaşında vəfat edib

Dünya şöhrətli aktrisa, ötən əsrin 50-ci illərində italyan kinosunun siması olmuş Cina Lollobricida yanvarın 16-da, 96 yaşında vəfat edib.

Əsl adı Luicina olan aktrisa 1927-ci il iyulun 4-də Subiako şəhərində mebel ustası ailəsində doğulub. Ailədə ondan savayı daha üç qız uşağı vardı. Uşaqlığı ucqar dağ kəndində keçib. 1945-ci ildə ailəsi Roma ətrafına köçüb. Cina küçə rəssamlığı ilə məşğul olur, vokal dərsləri alır və teatr məktəbində oxuyurdu.

1946-cı ildə kinoda epizodik rollarla debüt edib. 1947-ci ildə “Miss İtaliya” gözəllik müsabiqəsində üçüncü yeri tutması onu ölkədə tanıdıb. 1950-ci ildən filmlərdə baş rollara dəvət alıb. Ona dünya şöhrətini fransız rejissor Kristian Jakın “Fanfan-zanbaq” filmindəki Adeline obrazı gətirib, tərəf-müqabil Jerar Filip olub. 1952-ci ildə onlar yenidən çəkiliş meydançasında – “Gecə gözəlləri” filmində görüşüblər. Aktrisanın ən diqqətçəkən rollarından biri də “Paris Notr-Dam kilsəsi”ndəki (1956) Esmeraldadır.

Cina Lollobricida kino karyerasını 1973-cü ildə dayandırsa da, 90-cı illərədək rejissorların israrlı dəvətləri ilə ara-sıra kinokamera önünə keçib. Ümumilikdə 60-dan çox filmdə çəkilib, onların yarıdan çoxu 1950-ci illərdə lentə alınıb.

70-ci illərdə çəkiliş meydançasından ayrıldıqdan sonra peşəkar fotoqraflığa başlayıb, bir neçə albom nəşr etdirib. Salvador Dali, Fidel Kastro onun üçün poz veriblər və sonralar Cina onlar haqqında film çəkib. Ömrünün son illərində də film festivallarına jüri üzvü və fəxri qonaq kimi dəvət alırdı. Həmişə də zahiri görünüşü ilə diqqətləri özünə çəkirdi. Yaşının doxsanında belə onu gözəllik və dəb üslubunun ikonası adlandırırdılar...





**V.Kamal**




## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 222 il əvvəl...

**18 yanvar 1801-ci ildə** Gürcü knyazlığı (Kartli-Kaxeti) Rusiyaya birləşdirilib. Çar I Pavel bununla bağlı fərman imzalayıb. Rusiya imperiyasının Cənubi Qafqaza yürüşü başlanıb.

### 152 il əvvəl...

**18 yanvar 1871-ci ildə** Prussiya kansleri (baş nazir) Otto Bismarkın səyləri ilə alman torpaqlarının birləşdirilməsi başa çatıb. Prussiya ətrafında birləşən Almaniya imperiyasının yarandığı elan edilib. Prussiya kralı I Vilhelm birləşmiş Almaniyanın imperatoru, Bismark isə imperiyanın kansleri olub.

### 77 il əvvəl...



**18 yanvar 1946-cı ildə** Londonda Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 1-ci sessiyası işə başlayıb. BMT-nin ali qurumu üç il Londonda fəaliyyət göstərmişdi. 1949-cu ildə BMT ABŞ-a, Nyu-Yorkdakı indiki binasına köçdü.

### 108 il əvvəl...

**19 yanvar 1915-ci ildə** dünya müharibələri tarixində ilk dəfə hava hücumu faktı qeydə alınıb. Almaniya hərbi-dəniz donanmasına məxsus 3 dirijabl İngiltərə ərazilərini bombardman edib. Lakin Almaniya ordusunun bu əməliyyatı sonda uğursuzluğa düçar olub. Dirijabllar da geri qayıdarkən tufana düşərək qəzaya uğrayıblar.

### 42 il əvvəl...

**19 yanvar 1981-ci ildə** Tehranda girov saxlanılan amerikalıların azad olunması barədə İran və ABŞ arasında razılaşma imzalanıb. 1981-ci il yanvarın 20-də, yeni Prezident Ronald Reyqanın inauqurasiya günü Tehranda saxlanılan amerikalılar 14 aylıq girovluqdan sonra azad edildilər. 1979-cu il noyabrın 4-də İranın “İslam inqilab qvardiyası”nın üzvləri (əsasən tələbələr) ABŞ-nin Tehrandakı Səfirliyinə hücum edərək 53 diplomatı girov götürmüşdülər.

### 33 il əvvəl...



**18 yanvar 1990-cı ildə** Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Kərki kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. 1920-ci illərdə Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi nəticəsində Kərki kəndi Ermənistan ərazisində qalmış və anklav vəziyyətində idi.

### 30 il əvvəl...

**19 yanvar 1993-cü ildə** Azərbaycan Parlamenti “Dövlət gerbi haqqında” Konstitusiya qanunu qəbul edib. Cümhuriyyət dövründə Dövlət gerbi haqqında müsabiqə elan edilsə də (yanvar 1920), onu başa çatdırmaq mümkün olmamışdı. 1991-ci ildə Ali Sovetin qərarı ilə yeni müsabiqə elan olundu və Cümhuriyyət dövründə hazırlanmış layihələrdən biri kiçik dəyişikliklərlə təsdiq edildi. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən qalxan təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycanın Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri var.

**Hazırladı: V.Orxan**

# “Mənim illərim mənim sərvətimdir...”

## Vaxtanq Kikabidze ömrünün 85-ci ilində dünyadan köçdü

Gürcüstanın Xalq artisti, tanınmış estrada müğənnisi, aktyor, bəstəkar Vaxtanq Kikabidze 2023-cü il yanvarın 15-də, ömrünün 85-ci ilində dünyasını dəyişib.



Vaxtanq Kikabidze 19 iyul 1938-ci ildə Tbilisi şəhərində anadan olub. Orta məktəbi bitirəndən sonra Tbilisi Xarici Dillər İnstitutuna daxil olsa da, həyatını incəsənətə bağlayıb. 1959-cu ildən Tbilisi Filarmoniyasının solisti kimi peşəkar ifaçılığa başlayıb. Bir müddət sonra aktyor kimi də tanınıb. 1969-cu ildə məşhur rejissor Georgi Daneliya onu özünün ilk ekran işi ola “Qəm yemə” filmində həkim roluna dəvət edir. Bu rol Kikabidzeyə böyük uğur gətirir. 1977-ci ildə əsas qəhrəmanı oynadığı “Mimino” filmi (rejissor Georgi Daneliya) isə ona böyük keçmiş SSRİ-nin də hüdudlarını aşan şöhrət qazandırıb. V.Kikabidze filmin yaradıcı heyəti ilə birlikdə SSRİ Dövlət mükafatına layiq görülüb. 30-dan artıq filmdə çəkilən Kikabidze özünü ssenarist və rejissor kimi də sınayıb.

1971-ci ildə Moskvada “Melodiya” firması tərəfindən ilk vinil albomu (qramplastinka) yazılandan sonra müğənninin ümumilikdə 20-dən çox musiqi albomu buraxılıb. Dünyanın bir çox ölkələrində qastrol səfərlərində olan Vaxtanq Kikabidze Azərbaycan paytaxtına ilk dəfə ötən əsrin 70-ci illərində gəlib, həmçinin müstəqilik dövründə burada dəfələrlə konsert proqramlarında, yaradıcılıq gecələrində çıxış edib.

2010-cu ildə Heydər Əliyev Sarayında müğənninin böyük konserti keçirilib. 2014-cü ildə sənətkar iki dəfə Bakıda Heydər Əliyev Mərkəzində çıxış edib. Onun Gürcüstanın kino və teatr ulduzları ilə birlikdə oynadığı “Veri məhəlləsinin melodiyaları” müzikli, eləcə də solo konserti böyük rəğbətlə qarşılanıb. Müğənni 2018-ci ildə Qəbələdə Beynəlxalq “Veselo” Festivalında da konsert proqramı ilə çıxış edib. Vaxtanq Kikabidze Azərbaycan tamaşaçıları qarşısında sonuncu dəfə 2022-ci ilin avqustunda “Yaşıl Teatr”da Heydər Əliyev Fondunun təşkilatçılığı ilə dünya şöhrətli müğənni Müslüm Maqomayevin 80 illik yubileyinə həsr olunmuş xatirə gecəsində çıxış etmişdi.

Sənətkar Azərbaycana hər gəlişindən böyük məmnunluq duyduğunu ifadə edirdi. “Mən həmişə çıxışlarımda demişəm ki, iki şəhərdə məmnuniyyətlə yaşayaram – onlardan biri Tbilisi, digəri Bakıdır. Mən bu şəhəri sevirəm və özümü burada çox yaxşı hiss edirəm. Burada mənim çoxlu dostlarım var”, – deyə o bildirmişdi. 2014-cü ildə Heydər Əliyev Mərkəzindəki konsertində, “Bəri bax” Azərbaycan xalq mahnısını da daxil etdiyi “Qafqaz popurrisi” xüsusi alqışlar doğurmuşdu.

Kikabidze Gürcüstanda soydaşlarımızın kompakt yaşadığı rayonlarda da konsert proqramları ilə çıxış edir, Azərbaycanla bağlı tədbirlərə qatılırdı. 2022-ci ildə Tbilisi Dövlət İncəsənət Akademiyasında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr edilən tədbirdə Vaxtanq Kikabidzeyə Azərbaycan Mədəniyyət Nazirliyinin təsis etdiyi “Nizami Gəncəvi – 880” xatirə medalı təqdim olunmuşdu.

Onun repertuarındakı məşhur mahnılardan biri “Mənim illərim – mənim sərvətim” adlanırdı. Sənətkar üçün ən böyük sərvət illərini verdiyi və özündən sonra da yaşayacaq sənətidir. Ecazkar səsi, zamanın fövqündə duran mahnıları ilə milyonların qəlbini fəth etmiş sənətkarın vəfatı bütövlükdə incəsənət dünyası üçün itkidir.

Görkəmli sənətkarın vəfatı onun hər zaman dost münasibəti bəslədiyi Azərbaycanda da təəssüf və kədər hissi ilə qarşılanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstan xalqının böyük oğlu Vaxtanq Kikabidzenin vəfatı ilə əlaqədar onun doğmalarına və yaxınlarına başsağlığı verib.

Azərbaycan Mədəniyyət Nazirliyi də Vaxtanq Kikabidzenin vəfatı ilə əlaqədar ölkəmizin mədəniyyət və incəsənət ictimaiyyəti adından dost Gürcüstanın mədəniyyət ictimaiyyətinə, sənətkarın doğmalarına dərin hüznlə başsağlığı verib.

Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının kollektivi kinostudiyanın direktoru, Əməkdar mədəniyyət işçisi Nazim Hüseynova atası

**Fikrət Hüseynovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5055. **Sifariş:** 118
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641